AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 APREL 2019-cu il CÜMƏ AXŞAMI № 89 (6416) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Çinə işgüzar səfəri

## Pekinin beynəlxalq aeroportunda qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gəlib.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Pekin şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Çinin xarici işlər nazirinin müavini Can Hanhuy və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin Pekində görüşü olub



*Aprelin 24-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.*

*AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

**Çin Xalq Respublikasının sədri Si CİNPİN dedi:**

-Cənab Prezident Əliyev, Sizi Pekində bir daha salamlayıram, qarşıdakı "Bir kəmər, bir yol" ikinci Beynəlxalq Əməkdaşlıq Forumuna xoş gəlmisiniz. Azərbaycan tərəfi və şəxsən Siz Çin-Azərbaycan münasibətlərinin inkişafına, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə reallaşdırılmasına böyük diqqət yetirirsiniz. Biz bunu yüksək qiymətləndiririk.

Azərbaycan Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biridir. Siz həm də "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz. Sizin ölkəniz Böyük İpək Yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram.

Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır.

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV dedi:**

-Cənab Sədr, mənim ünvanıma söylədiyiniz və ölkəmiz haqqında dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm. Mən Sizə, ilk növbədə, dəvətə görə təşəkkür etmək istərdim. Biz "Bir kəmər, bir yol" Forumunda iştirak etməyə dəvət olunmağımızı ölkəmizə xüsusi hörmət əlaməti, mənə münasibətdə dostluq əlaməti hesab edirik.

**(davamı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham Əliyev Pekində "ZTE" Korporasiyasının sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "ZTE" Korporasiyasının sədri Li Cisue ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, "ZTE" Korporasiyasının sədri Li Cisue onun rəhbərlik etdiyi şirkətin dünyada telekommunikasiya avadanlıqlarının ən böyük təchizatçılarından biri olduğunu bildirdi. Çində və xaricdə çoxlu tərəfdaşlarının olduğunu deyən Li Cisue Azərbaycan bazarında da gözəl əməkdaşlıq nümunələrinin mövcudluğunu vurğuladı və ölkəmizlə tərəfdaşlıq əlaqələrini gücləndirmək istədiklərini bildirdi.

Prezident İlham Əliyev bu əməkdaşlığın uğurlu olacağına ümid etdiyini bildirdi. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafının Azərbaycanda prioritet sahələrdən olduğunu deyən dövlətimizin başçısı son illərdə bu sektorun inkişafı üçün xeyli işin görüldüyünü, bu sahəyə investisiyaların yatırıldığını, xarici tərəfdaşlarla əlaqələrin genişləndiyini dedi. Prezident İlham Əliyev "ZTE" Korporasiyası ilə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti İlham Əliyevin Çinə işgüzar səfəri

## Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin Pekində görüşü olub



(əvvəli 1-ci səhifədə)

Siz qeyd etdiniz ki, mən Sizin ölkənizin dostuyam, Azərbaycanda da Sizi Azərbaycanın xeyirxah dostu kimi tanıyırlar. Biz birgə səylərimizlə əməkdaşlığımızı irəlilədirik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik.

Bu Forumun keçirilməsi çox böyük əhəmiyyət kəsb edir. Siz qeyd etdiyiniz kimi, Azərbaycan lap əvvəldən Sizin təşəbbüsünüzü dəstəkləyib və bu layihəni bizim irəli sürdüyümüz təşəbbüslər çərçivəsində fəal irəlilədir. 2015-ci ildə Sizin ölkənizə dövlət səfərimi və burada mənə göstərilən qonaqpərvərliyi xatırlamaq istərdim. O vaxt Sizinlə biz "İpək Yolu İqtisadi Kəməri" haqqında Anlaşma Memorandumunu imzaladıq. Bu gün bizim siyasi münasibətlərimiz yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda fəal qarşılıqlı əlaqə saxlayırıq.

* * *

Çin Xalq Respublikasının Sədri Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu daxili və xarici siyasətinin həyata keçirildiyini, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artdığını, Azərbaycanda sabitliyin təmin olunduğunu, xalqımızın rifah halının yüksəldiyini, iqtisadi sahədə inkişafa nail olunduğunu bildirdi. O, Çinin Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini dəstəklədiyini vurğuladı. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində Trans-Xəzər nəqliyyat dəhlizinin əhəmiyyətini qeyd etdi.

Prezident İlham Əliyev də öz növbəsində Azərbaycanın "Vahid Çin" siyasətini ardıcıl surətdə dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı Çinin bütün sahələrdə əldə etdiyi böyük uğurlarla bağlı təbriklərini çatdırdı.

Söhbət zamanı infrastruktur, logistika, energetika, turizm, kənd təsərrüfatı, investisiya, informasiya-kommunikasiya texnologiyaları, təhsil və humanitar sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlıq və beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpini ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

AZƏRTAC

## Prezident İlham Əliyev Pekində "CETC" Korporasiyasının baş direktoru ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində "CETC" Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə Vu Mançin "CETC" Korporasiyasının Çinin radioelektronika sahəsində ixtisaslı şirkətlərindən olduğunu deyərək, bu sahədə uzun illərdir uğurla fəaliyyət göstərdiklərini bildirdi. O, bu sahədə Azərbaycan ilə əməkdaşlıq qurduqlarını və bundan məmnun qaldıqlarını vurğuladı, əlaqələrin inkişaf etdiyini bildirdi.

Ölkələrimiz arasında dostluq əlaqələrinin mövcud olduğunu deyən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Çinin böyük şirkətlərinin ölkəmizdə fəal iş görmələrində maraqlıdır. Dövlətimizin başçısı artıq Çinin bir çox şirkətlərinin timsalında yaxşı tərəfdaşlığın yarandığını bildirdi və Azərbaycanda xarici şirkətlər üçün geniş fəaliyyət sahəsinin olduğunu qeyd etdi.

AZƏRTAC

## Prezident İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü Van Yanla görüşüb





**Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Van Yan Azərbaycan Prezidentinin Çinə səfərinin ikitərəfli əlaqələrimizə töhfə verdiyini bildirdi. "Bir kəmər, bir yol" layihəsinin hərtərəfli əməkdaşlığı ehtiva edən geniş ictimai platforma olduğunu deyən Van Yan Azərbaycanın və Çinin beynəlxalq təşkilatlar çərçivəsində daim bir-birini dəstəklədiyini vurğuladı. Qeyd etdi ki, ölkələrimiz birgə səylərlə siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığı daha da inkişaf etdirməlidir.

Prezident İlham Əliyev ölkələrimiz arasında bütün istiqamətlərdə əməkdaşlığın inkişafında müsbət dinamikanın olduğunu bildirdi. Azərbaycanın Çin dövləti başçısının təşəbbüskarı olduğu "Bir kəmər, bir yol" layihəsinə mühüm əhəmiyyət verdiyini, bu təşəbbüsü dəstəkləyən ilk ölkələrdən olduğunu qeyd etdi. Bildirdi ki, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasına xüsusi önəm verilir. Prezident İlham Əliyev ikinci "Bir kəmər, bir yol" Beynəlxalq Forumuna dəvətə görə təşəkkür etdi, bunu Azərbaycana olan hörmətin və dostluğun nümunəsi kimi qiymətləndirdi. Dövlətimizin başçısı bu səfərinin Azərbaycanla Çin arasında əməkdaşlığın inkişafına ciddi təkan verəcəyini bildirdi.

Söhbət zamanı Çin-Azərbaycan münasibətlərinin və iqtisadi sahədə əməkdaşlığın inkişafı, ticarət dövriyyəsinin artırılması, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək, investisiya qoyuluşu və digər məsələlər müzakirə olundu.

AZƏRTAC

## Rusiyadakı Azərbaycan ictimai təşkilatları Prezident Vladimir Putinə müraciət ünvanlayıb

**Akademik Fazil Qurbanovun rəhbərliyi ilə Rusiyadakı Azərbaycan ictimai təşkilatları Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsi ilə əlaqədar RF Prezidenti Vladimir Putinə müraciət ünvanlayıb. Müraciəti Rusiyanın 50-dən çox Azərbaycan diaspor təşkilatlarının rəhbərləri imzalayıblar.**

AZƏRTAC xəbər verir ki, müraciətdə son iyirmi ildə Rusiya Federasiyasının ərazisində çoxmillətli Azərbaycanı təmsil edən yetərincə böyük diasporun formalaşdığı qeyd edilir. Azərbaycan xalqı ən ağır zamanlarda rus xalqı ilə birlikdə olub. İki yüz ilə yaxın eyni tarixi-coğrafi məkanda yaşayan Azərbaycan xalqı dövlətin konstitusiya dayaqlarına sədaqət nümayiş etdirib.

Azərbaycanlı hərbi xadimlərin adları Birinci Dünya müharibəsində ən yaxşı rusiyalı sərkərdələrin cərgəsinə daxil edilib.

Böyük Vətən müharibəsində Azərbaycan cəbhənin yanacaq ehtiyacının 80 faizini təmin edirdi, ölkəmizdə 130-dan çox silah növü - hərbi sursat və hərbi ləvazimat, o cümlədən əfsanəvi "Katyuşa"lar və onlar üçün reaktiv mərmilər, UTİ-4 və YAK-3 qırıcı təyyarələr istehsal edilirdi. Aviasiya təmiri zavodu, cəbhənin ehtiyacları üçün 300 növdən çox məhsul istehsal edən zavodlar əhəmiyyətli rol oynayıblar. Azərbaycan qospitalları 1,5 milyona yaxın hərbiçini sağaldaraq cəbhəyə qaytarıb. Azərbaycan xalqı Rusiyanın müxtəlif regionlarının əhalisinə xeyli yardımlar edib. Azərbaycanın kişi əhalisinin 70 faizi cəbhəyə yollanıb, onların yarısı qayıtmayıb. Azərbaycanlılar həm Qızıl ordunun döyüş hissələrində vuruşub, həm də ölkənin müxtəlif ərazilərində partizan hərəkatında fəal iştirak ediblər.

Başqa xalqların mədəniyyətinə, ənənələrinə tolerant münasibət və hörmət Azərbaycan xalqının genetik xüsusiyyətidir. Bu gün də Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir.

Erməni xalqının nümayəndələri təxminən 200 ildir ki, Azərbaycan torpağında yaşayırlar. Azərbaycanda yüz mindən çox erməni yaşayır, onlardan 70 mini Dağlıq Qarabağda məskunlaşıb. Dağlıq Qarabağ həmişə qonaqpərvərliyin və mədəniyyətlərin vəhdətinin, iki xalqın ənənələrinin rəmzi olub. Lakin vahid ölkənin parçalanmasına çalışan dağıdıcı güclər hər iki xalq üçün ağır nəticələrə səbəb olan etnik münaqişəni körüklədilər. Bu gün musiqi-poetik yaradıcılığın beşiyi, həyat və tərəqqi rəmzi olan bu torpaqda qan tökülür, insanlar həlak olur. Otuz ilə yaxındır ki, yüz minlərlə azərbaycanlı qaçqına çevriliblər. Ölkə iqtisadiyyatına ciddi zərər yetirilir. Təkcə azərbaycanlılar deyil, blokadaya düşmüş, iqtisadi cəhətdən sərfəli regional layihələrdən kənarda qalmış Ermənistanın özü də bundan əziyyət çəkir.

Məktubda deyilir: "Çox hörmətli Vladimir Vladimiroviç! Bu gün Rusiya son iyirmi ildə həyata keçirilmiş böyük tədbirlər sayəsində qüdrətli dövlətlərdən birinə çevrilib. Dünyada heç bir problem Rusiyanın iştirakı olmadan öz həllini tapa bilməz. Biz dünyada dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin qorunması üzrə Rusiyanın siyasətini dəstəkləyirik.

Rusiya-Azərbaycan, Rusiya-Türkiyə, Rusiya-İran münasibətlərinin genişlənməsi və möhkəmlənməsi bu gün regionda sülhə və sabitliyə kömək edir. Biz, həmçinin İslam dünyasına qarşı Qərbin "qəhvəyi taun" - yeni xaç yürüşünə qarşı mübarizəyə Sizin verdiyiniz töhfəni yüksək qiymətləndiririk.

Biz, Rusiya azərbaycanlıları əminik ki, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında məhz Sizin bilavasitə iştirakınız problemin beynəlxalq hüquq normalarına və Azərbaycanın ərazi bütövlüyünə əsaslanan düzgün ədalətli həlli yollarını tapmağa kömək edəcək. Bu, Azərbaycan və erməni xalqları üçün həyati əhəmiyyətli məsələdir! Qara səhifələrlə dolu olan keçmişin qapılarını bağlamağın və sülhün və tərəqqinin üstünlüyünü təmin edəcək gələcəyə qapı açmağın vaxtıdır! Bunu yalnız Siz - Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putin edə bilər!".

AZƏRTAC

# Yeni Azərbaycan Partiyasının qərargahında “Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar” adlı tədbir keçirilib

**Qondarma erməni soyqırımı kimi bir yalan erməni xalqının məkrli niyyətindən xəbər verir. Ermənilərin irəli sürdüyü bu soyqırımı yalanı heç bir sübuta əsaslanmır. Bu iddianın kökündə Türkiyəyə qarşı ərazi iddiaları dayanır.**



AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 24-də Yeni Azərbaycan Partiyasının (YAP) qərargahında keçirilən “Uydurma erməni soyqırımı: həqiqətlər və reallıqlar” adlı tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov deyib.

Əli Əhmədov bildirib ki, nəinki ermənilər kütləvi şəkildə qətlə yetirilməyib, tam əksinə, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində bədnam qonşularımızın soyqırımına məruz qalıb. Bunlar tarixi faktdır. Ermənilər Azərbaycan torpaqlarının iyirmi faizini işğal edib, bir milyondan çox soydaşımız öz yurd-yuvalarından didərgin düşüb.

“Türkiyə və Azərbaycan olaraq bizim qarşımızda duran əsas vəzifə erməni yalanlarını ifşa etməkdir. Bunun üçün iki qardaş dövlət mövcud imkanlarını birləşdirməlidirlər. Uydurma erməni soyqırımının təbliğ edilməsi, bu yalanın bəzi dövlətlər tərəfindən tanınması qəti şəkildə qınanmalıdır. Ermənilərin Türkiyə və Azərbaycan xalqlarına qarşı törətdiyi faciələrin bütün dünyaya geniş şəkildə çatdırılması üçün daha çox səy göstərilməlidir”,- deyə Baş nazirin müavini vurğulayıb.

Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral Türkiyə və Azərbaycan xalqlarına qarşı ermənilərin tarix boyu törətdiyi soyqırımları ilə bağlı ətraflı məlumat verib. Bildirib ki, bu erməni yalanı, əslində, ədalətə qarşı bir haqsızlıqdır. Diplomat deyib: “Ermənilərin tarixi yalanlarla doludur. 1918-ci ildə Qafqaz İslam Ordusu ermənilərin Azərbaycan xalqına qarşı soyqırımının qarşısını almaq üçün bura gəlmişdi. Biz Türkiyə Cümhuriyyəti olaraq bütün tarixi arxivlərimizi açmışıq və hər cür araşdırmalara hazırıq. Lakin Ermənistan bunu etmir”.

Bu günə qədər 34 türk diplomatının erməni terrorçuları tərəfindən qətlə yetirildiyini söyləyən səfir bildirib ki, Ermənistan dövləti Azərbaycan və Türkiyə xalqlarına qarşı törətdiyi soyqırımlarına görə cavab verməlidir.

Sonra Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov çıxış edərək, tarixi faktlarla qondarma erməni soyqırımının böyük bir yalan olduğunu göstərib. Bildirib ki, bu tarixi yalan “böyük Ermənistan” iddialarını gerçəkləşdirmək üçün atılmış bir addımdır.

Tədbirdə, həmçinin Milli Məclisin deputatları Fəzail Ağamalı, Asim Mollazadə, Fazil Mustafa, Rauf Əliyev və YAP İdarə Heyətinin üzvü Kərim Kərimov çıxış edərək mövzu ilə əlaqədar fikirlərini bildiriblər.

Sonda uydurma “erməni soyqırımı” ilə əlaqədar tədbir iştirakçıları adından bəyanatın qəbul olunaraq müvafiq beynəlxalq qurumlara və dövlətlərin parlamentlərinə göndərilməsi qərara alınıb.

**AZƏRTAC**

# Pekində Azərbaycanla Çin şirkətləri 821 milyon dollarlıq sənədlər imzalayıb

**Çinin paytaxtında keçiriləcək 2-ci “Bir kəmər, bir yol” beynəlxalq forumu çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb.**




AZƏRTAC xəbər verir ki, imzalanma mərasimində çıxış edən iqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayev dövlət başçılarının siyasi iradəsi və dostluq münasibətlərinin iki ölkə arasında əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə olduğunu deyib.

Azərbaycanın Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə dəstək göstərən ilk ölkələrdən biri olduğunu diqqətə çatdıran nazir bildirib ki, bu günlərdə Pekində keçiriləcək 2-ci “Bir kəmər, bir yol” beynəlxalq forumunda Prezident İlham Əliyevin iştirakı Azərbaycanın bu təşəbbüsə verdiyi əhəmiyyətin və göstərdiyi dəstəyin bariz nümunəsidir.

O bildirib ki, Azərbaycan Cənubi Qafqaz regionunda Çinin əsas ticarət tərəfdaşıdır. Belə ki, Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində ölkəmizin payı 43 faizdir.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlığın davam etdiyini söyləyən Ş.Mustafayev ötən dövrdə Çin investorlarının Azərbaycana 800 milyon dollardan çox sərmayə yatırdığını bildirib. Azərbaycanın Çin iqtisadiyyatına yatırdığı investisiyaların həcmi isə 1 milyard 700 milyon dollar təşkil edir.

“Biz nəqliyyat və tranzit, xüsusilə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun reallaşdırılması, sənaye, kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, humanitar və digər sahələrdə əlaqələrimizi genişləndiririk. Bu xüsusda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının rolunu vurğulamaq lazımdır”, - deyə nazir bildirib.

Çinin Kommersiya Nazirliyinin Avrasiya idarəsinin rəisi, Çin-Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Luo Veydon bildirib ki, 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Çinə səfəri zamanı İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair imzalanan Anlaşma Memorandumu ölkələrimizin iqtisadi-ticarət əlaqələrinin daha da inkişafı üçün istiqamətlər müəyyən edib.

Çin-Azərbaycan iqtisadi-ticari əməkdaşlığının böyük potensialı və parlaq gələcəyi olduğunu bildirən L.Veydon ölkəsinin Azərbaycandan kənd təsərrüfatı, kimyəvi və sənaye istehsalı məhsullarının idxalını daha da artırmağı, internet İpək Yolunun yaradılması, İpək Yolu elektron ticarətinin inkişafı məsələsində Azərbaycanla əməkdaşlığı dərinləşdirmək istədiyini diqqətə çatdırıb. Bundan başqa, tərəflər Transxəzər Nəqliyyat Dəhlizinin imkanlarından tam şəkildə istifadə ilə bağlı dərin araşdırmalar aparmalı, “Bir kəmər, bir yol” tikintisini təşviq etməlidirlər.

“İki ay əvvəl Çin-Azərbaycan Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib. Bu gün iki ölkənin şirkətləri arasında imzalanan sənədlər ticarət, sənaye, kənd təsərrüfatı, kommunikasiya texnologiyaları, logistika və digər sahələri əhatə edir. Bu tam olaraq Çin-Azərbaycan iqtisadi-ticari əməkdaşlığının böyük potensialını və parlaq gələcəyini əks etdirir”, - deyə L.Veydon bildirib.

Sonra Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, “Azerbaijan Digital HUB” proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, Transxəzər Nəqliyyat Dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb.

**AZƏRTAC**

# Nazir Azad Rəhimov Formula 1 SOCAR Qran-Prisi ərəfəsində jurnalistlərlə görüşüb

**Azərbaycan dördüncü dəfə Formula 1 yarışına ev sahibliyi edəcək. Bu il Formula 1 rəhbərliyi ilə yeni müqavilə imzalanıb. Yarışın trasında heç bir dəyişiklik nəzərdə tutulmayıb. Əyləncə proqramında isə məşhur müğənnilər iştirak edəcəklər.**



AZƏRTAC xəbər verir ki, bu sözləri aprelin 24-də jurnalistlərlə görüşən Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov deyib.

Nazir bildirib ki, əyləncə proqramı çərçivəsində Sem Smitin konserti ləğv olub. Belə ki, Cənubi Afrika turu zamanı müğənninin səhhətində problem yaranıb və həkimlər konsert proqramlarının ləğvini məqbul hesab ediblər. Həmin gün digər məşhur müğənni Cessi Cey “Baku Crystal Hall”da S.Smiti əvəz edəcək. Aprelin 28-də isə Kardi Bi gözəl ifasını təqdim edəcək.

“Azərbaycan Qran-Prisinə hazırlıqla əlaqədar tikinti və montaj işləri birinci ildəki kimi böyük ölçüdə olmayıb. Ümumilikdə trekin konfiqurasiyası dəyişməz olaraq qalır. Hazırda İçərişəhər və Qız qalası tribunalarının tikinti işləri davam edir. Digər tribunaların tikintisi başa çatıb. Trekyanı baryerlər tam quraşdırılıb. Pit binası ilə əlaqədar görülən işlər başa çatdırılıb və komandalar Bakıya gəlir. Artıq Azərbaycan Qran-Prisinin titul sponsoru var. Belə ki, builki yarışımız Formula 1 SOCAR Azərbaycan Qran-Prisi adlandırılır. Hazırda sponsorların banerlərinin yerləşdirilməsi prosesi davam edir”, - deyə A.Rəhimov əlavə edib.

Nazir bildirib ki, Formula 1 Azərbaycan Qran-Prisi üçün Azərbaycan da daxil olmaqla, ümumilikdə 67 ölkədən bilet alınıb. İndiyədək satılan biletlərin 39 faizi Azərbaycandan, qalan hissəsi isə xaricdən alınıb. Xaricdən ən çox bilet Rusiya və Böyük Britaniyadan alınıb. Sonrakı sıralarda Avstriya, Gürcüstan və Niderland yer alır. İlk onluqda isə Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Ukrayna və ABŞ qərarlaşıb. ümumilikdə xaricdən biletlərin 63 faizə yaxını 10 ölkədən alınıb. Filarmoniya tribunasına olan biletlərin hamısı satılıb. Bir neçə tribunada da biletlər tamamilə satılmaq üzrədir.

“Bakı Şəhər Halqası” Əməliyyat Şirkətində 113-ə yaxın daimi işçinin çalışdığını və bunlardan sadəcə 3-nün xarici ölkə vətəndaşı olduğunu diqqətə çatdıran nazir qeyd edib ki, yarışa yaxınlaşdıqca kadr sayı artır. Bu il ümumilikdə mindən çox işçi fəaliyyət göstərir. 2016-cı ildə keçirilən ilk yarışda 5 min, ondan sonrakı yarışlarda isə 3 min könüllü təşkilatçılıq işində iştirak edib. Bu il də prosesə 3 min könüllü qoşulacaq. Hər ötən il təcrübəli könüllülərlə yanaşı, əsasən yeni könüllülərə daha çox yer verilir. Bu könüllülərin 55 faizi qızlar, 45 faizi isə oğlanlardır. Yarışlara cəlb olunan bütün könüllülərin 90 faizi tələbələrdir. Bununla yanaşı, könüllülər komandasında 30-a yaxın ölkədən könüllü mövcuddur. Onların yarıdan çoxu Azərbaycan universitetlərində təhsil alan xarici tələbələrdir. Formula 1 üçün ilk könüllü proqramı elan olunandan bu günədək ötən 4 il ərzində könüllü olmaq üçün müraciət edənlərin sayı 50 mini ötüb. Hər il yüksək peşəkarlıq və fəallıq göstərənlər arasından 50-80 nəfər növbəti yarışlara işçi olaraq cəlb olunurlar. Bu il Formula 1 Azərbaycan Qran-Prisində 300 yeni marşal iştirak edir. Ümumilikdə Marşal Proqramına 1100 yerli, 140 xarici vətəndaş qəbul olunub.

A.Rəhimov vurğulayıb ki, “PricewaterhouseCoopers” (PWC) beynəlxalq audit şirkətinin 2017-ci ilin sonlarında apardığı müstəqil araşdırmanın nəticələrinə görə, Bakıda keçirilmiş ilk iki Formula 1 yarışı ölkə iqtisadiyyatına ümumilikdə 277,3 milyon dollar gəlir gətirib. Bu məbləğ yarışlar ərəfəsində F1 ilə əlaqədar olaraq Bakıya gələnlərin xərcləri əsasında yaranmış birbaşa və dolayı gəlirləri əhatə edir. Bu rəqəmə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən peşəkar xidmətlər, otel və mehmanxana, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət və elektrik, qaz, su və digər sektorlarda qeydə alınmış gəlirlər daxildir. Birbaşa gəlirlərdə əsas yeri turizm sektoru tutur ki, Bakıda baş tutmuş iki Qran-Pri ərəfəsində qeydə alınmış birbaşa gəlirlərin 22,7 milyon dolları məhz bu sektorun payına düşür. Sözügedən dövr ərzində ümumilikdə birbaşa gəlirlər 164,2 milyon dollar təşkil edib ki, bu rəqəmə F1 ilə əlaqədar Bakıya gələn qonaq və yarış iştirakçılarına mehmanxana, restoran, nəqliyyat və s. istiqamətlər üzrə təqdim olunmuş məhsul və xidmətlər, həmçinin bu məhsul və xidmətlərlə birbaşa əlaqədə yaranmış digər gəlirlər daxildir. İndiyədək Bakıda keçirilmiş iki Qran-Pri ərəfəsində dolayı gəlirlər isə ümumilikdə 113,1 milyon dollar təşkil edib. Bu gəlirlərin içərisində yenə şəhərin turizm sektoru 14,9 milyon dollarla ən çox iqtisadi fayda götürən sektor olub.

“Hazırda Formula 1 dünya çempionatı 21 mərhələdən ibarətdir. Ölkəmizdə ilk yarış iyunda təşkil olunmuşdu. Biz danışıqlar aparırıq ki, yarış növbəti illərdə də iyunda keçirilsin. Hazırda 4 ölkə Qran-Pri təşkil etmək üçün sıra gözləyir. MDB ölkələri arasında yalnız Azərbaycan və Rusiya Formula 1 yarışlarına ev sahibliyi edir”, - deyə nazir əlavə edib.

Qeyd edək ki, Formula 1 SOCAR Azərbaycan Qran-Prisi aprelin 26-28-də Bakı şəhər halqasında təşkil olunacaq.

**AZƏRTAC**

*Fransa hökumətinin məsləhətçisi:*

# Azərbaycanda dini icmalar arasındakı qardaşlıq münasibətləri böyük dəyərdir

**Aprelin 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Fransa hökumətinin Azərbaycanda səfərdə olan dini işlər üzrə məsləhətçisi Jan-Kristof Paskal ilə görüşüb.**



QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, A.Paşazadə bu yaxınlarda Parisin Notr-Dam kilsəsində baş vermiş yanğından təəssüf hissi keçirdiyini, bu məşhur və möhtəşəm tarixi abidənin tezliklə bərpa olunaraq yenidən bəşəriyyətə qaytarılacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, Azərbaycan dindarları bu işə maddi və mənəvi dəstək verməyə hazırdırlar.

QMİ sədri Azərbaycan dövlətinin beynəlxalq müstəvidə dinlərarası və sivilizasiyalararası əməkdaşlıq prosesinə verdiyi əməli töhfələrdən bəhs edib. Multikulturalizmin ölkəmizdə dövlət siyasəti olduğunu bildirən şeyxülislam Allahşükür Paşazadə dövlətimizin başçısının bu istiqamətdə ardıcıl siyasi iradə nümayiş etdirdiyini, qlobal əhəmiyyətli multikulturalizm və həmrəylik ideyalarını irəli sürdüyünü xüsusi qeyd edib. A.Paşazadə 2017-ci ilin sonunda QMİ-nin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin də bu məramа xidmət etdiyini vurğulayıb.

Azərbaycanın multikultural dövlət modelinin beynəlxalq aləmdə tanıdılmasına xidmət edən və dünyanın bir çox dövlətlərində keçirilmiş beynəlxalq konfranslar barədə məlumat verən QMİ sədri bu xüsusda iyun ayında Avstriyanın paytaxtı Vyanada keçiriləcək, Fransa təmsilçilərinin də qatılacağı növbəti beynəlxalq forumdan bəhs edib.

A.Paşazadə bildirib ki, dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri, dövlət rəsmiləri, nüfuzlu alim və ziyalıları arasında səmərəli fikir mübadiləsinin aparılması üçün ənənəvi məkana çevrilən Azərbaycan sivilizasiyalararası dialoqun inkişafına, müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, eləcə də qarşılıqlı etimad mühitinin formalaşdırılması işinə böyük töhfələr verməkdədir. Azərbaycan Prezidentinin Sərəncamı ilə bu il noyabrın 14-15-də “Dünya dini liderlərinin II Bakı sammiti” keçiriləcək. Şeyxülislam 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş ilk sammitinin davamı olacaq bu tədbirin qloballaşan dünyanın müasir çağırışlarının, aktual problemlərinin həllinə Azərbaycan dövlətinin daha bir dəyərli töhfəsi olacağına ümidvar olduğunu bildirib.

Bakıya ilk dəfə 1998-ci ildə səfər etdiyini xatırladan fransalı qonaq ötən müddət ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini bildirib. Azərbaycandakı dini icmalar arasında müşahidə etdiyi səmimi qardaşlıq münasibətlərinin böyük dəyər olduğunu bildirib.

Görüşdə Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez də iştirak edib.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində “Mine Mark” Fondunun nümayəndə heyəti ilə görüş keçirilib

**Aprelin 24-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Niderland Krallığının “Mine Mark” Fondunun ölkəmizdə səfərdə olan nümayəndə heyəti ilə görüşüb.**



Komitədən AZƏRTAC-a bildiriblər ki, sədr Rövşən Rzayev Ermənistanın hərbi təcavüzü və işğalçılıq siyasəti nəticəsində ölkəmizin üzləşdiyi humanitar problemlər, bu problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlər haqqında qonaqlara məlumat verib. Qeyd edilib ki, Prezident İlham Əliyev müharibədən əziyyət çəkən və sosial müdafiəyə xüsusi ehtiyacı olan insanlara, o cümlədən qaçqınlara və məcburi köçkünlərə dövlət qayğısının artırılmasını daim diqqətdə saxlayır. Hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə birinci növbədə köçürülməsi barədə Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığı icra edilir.

Bildirilib ki, işğalçı Ermənistan hərbi təxribatlar törətmək və atəşkəs rejimini müntəzəm şəkildə pozmaqla qoşunların təmas xəttinə yaxın ərazilərdə yaşayan mülki əhalinin, o cümlədən uşaqların həyatını ciddi təhlükə qarşısında qoyur. Azərbaycan özünün işğaldan azad edilən ərazilərini minalardan təmizləyib, bərpa-abadlıq işləri aparsa da, həmin ərazilərdə mina təhlükəsi ilə bağlı maarifləndirmə işlərinin aparılması öz aktuallığını saxlayır.

“Mine Mark” Fondunun həmtəsisçiləri Lalə Mustafazadə-Van der Kolk, Nils Hegel, ictimaiyyətlə əlaqələr meneceri İlaria Vallini, maliyyə və strategiya meneceri Aleksandr Zrdavkovski təmsil etdikləri qeyri-hökumət təşkilatının ötən il yaradıldığını, qurumun uşaqları, gəncləri minalardan, partlayıcı döyüş sursatlarından qorumaq məqsədi ilə layihələr həyata keçirdiyini, Azərbaycanda da belə layihələrin icrası üzrə əməkdaşlıq perspektivlərinin olduğunu bildiriblər.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Niderlandlı qonaqlar sonra Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkünlərlə görüşüb, onların yaşayış şəraiti ilə tanış olublar.

**AZƏRTAC**

*Qriqori İvliyev:*

# “Rospatent” və Azərbaycan Əqli Mülkiyyət Agentliyi eyni istiqamətdə hərəkət edir

**Rusiya Federal Əqli Mülkiyyət Agentliyi (“Rospatent”) və Azərbaycan Əqli Mülkiyyət Agentliyi Əməkdaşlıq haqqında Memorandum imzalayacaqlar.**



Rusiya Federal Əqli Mülkiyyət Agentliyinin rəhbəri Qriqori İvliyev “Rəqəmsal transformasiya: İP diqqət mərkəzində” mövzusunda beynəlxalq konfrans çərçivəsində AZƏRTAC-ın müxbirinə müsahibəsində bu barədə danışıb. Moskvada keçirilən konfransda ölkəmizi Azərbaycan Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov təmsil edir.

Q.İvliyev qeyd edib ki, konfransda hüquq ilə rəqəmsallaşdırmanın nisbəti, texnologiya və ekspertiza, müəllif hüquqları və sənaye mülkiyyəti hüquqları məsələləri müzakirə edilir. O deyib: “Azərbaycan Əqli Mülkiyyət Agentliyinin rəhbəri Kamran İmanov öz çıxışında konfrans iştirakçıları tərəfindən müzakirə olunan mövzuların çoxunu hərtərəfli açıqladı. Buna görə təəccüblü deyil ki, konfrans iştirakçılarının suallarının çoxu ona ünvanlanmışdı. Biz əməkdaşlığımıza çox şadıq. Tezliklə bu əməkdaşlığı idarələrimizin qarşılıqlı fəaliyyətinin müasir məsələlərinə, əqli mülkiyyət məsələlərinə həsr olunmuş Memorandum ilə təsbit edəcəyik. Biz şadıq ki, “Rospatent” və Azərbaycan Əqli Mülkiyyət Agentliyi eyni istiqamətdə hərəkət edir. Biz həmfikirlər və müttəfiqlərik”.

**AZƏRTAC**

# Akademik Zərifə Əliyeva oftalmologiya elminin tərəqqisinə böyük töhfələr verib

**AMEA Rəyasət Heyətinin aparatı Mətbuat və İnformasiya İdarəsi ictimaiyyətlə əlaqələr şöbəsi - Mətbuat xidmətindən bildirirlər ki, AMEA-nın əsas binasında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 96-cı ildönümünə həsr olunan "Alim qadın - Böyük ana akademik Zərifə Əliyeva" adlı tədbir keçirilib.**

AMEA-nın Qadınlar Şurasının təşkilatçılığı ilə baş tutan tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli açıb. O, oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyevanın zəngin elmi irsindən və fəaliyyətinin müxtəlif dövrlərindən söz açıb.

"Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir" - deyən AMEA-nın vitse-prezidenti onun həyat yolunun hər bir Azərbaycan vətəndaşı, alimi və həkimi üçün mənəviyyat dərsi, kamillik məktəbi olduğunu vurğulayıb. İ.Həbibbəyli bildirib ki, akademik Zərifə Əliyeva peşə patologiyası problemləri ilə yanaşı, oftalmologiyanın digər aktual istiqamətlərində tədqiqatlar aparıb. Görkəmli alimin 200-dək elmi işi, 14 monoqrafiyası, 12 səmərələşdirici təklifi bu gün də aktuallığını qoruyub saxlayır. Oftalmoloq-alim peşəkarlığı, istedadı ilə yanaşı, sadəliyi, qayğıkeşliyi və səmimiyyəti ilə onu əhatə edən insanların rəğbətini və məhəbbətini qazanıb.

Zərifə xanımın həm də görkəmli ictimai xadim olduğunu diqqətə çatdıran natiq onun keçmiş SSRİ Sülhü Müdafiə Komitəsinin üzvü, həmçinin Ümumittifaq "Bilik" Cəmiyyəti İdarə Heyətinin, Ümumittifaq Oftalmoloqlar Elmi Cəmiyyəti Rəyasət Heyətinin üzvü olduğunu, "Əməkdar elm xadimi" fəxri adına layiq görüldüyünü bildirib.

AMEA-nın vitse-prezidenti vurğulayıb ki, Zərifə Əliyeva Azərbaycana İlham Əliyev kimi Prezident bəxş edən bir ana olaraq hər zaman tarixdə qalacaq. Ölkəmizin sürətli inkişafı, dünyadakı nüfuzu, möhtəşəm uğurları ilə fəxr edərkən, Azərbaycan Prezidentinin bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, sözsüz ki, Zərifə xanımın da təsirini görürük. Akademik Zərifə Əliyevanın işıqlı obrazı heç zaman ürəklərdən silinməyəcək.

İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova çıxış edərək bildirib ki, Zərifə Əliyeva Azərbaycanda oftalmologiya sahəsində ilk qadın akademik kimi tibb işçilərinin hazırlanmasında, elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərib. Onun inkişaf etdirdiyi elm sahəsinin davamçıları bu gün də alimin irsindən faydalanırlar.

AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə isə çıxışında qeyd edib ki, Zərifə xanım Əliyevanın tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatları, qazandığı nailiyyətləri, fundamental əsərləri Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib.

Tədbirdə millət vəkili, siyasi elmlər doktoru, dosent Qənirə Paşayeva da çıxış edərək görkəmli oftalmoloq-alim Zərifə Əliyeva ilə bağlı fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan ziyalı qadınının ən gözəl simalarından olan Zərifə xanımın xarakterində məsuliyyət, zəhmətkeşlik və xeyirxahlıq kimi üç böyük xüsusiyyət cəmləşmişdir.

Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin övladı olmaq kimi böyük bir məsuliyyəti şərəflə daşıyan Zərifə xanım, həm də həkim və alim kimi nümunəvi fəaliyyəti ilə fərqlənmiş, oftalmologiya tarixinə adını qızıl hərflərlə yazdırmışdır.

Q.Paşayeva bu kimi tədbirlərin keçirilməsinin Zərifə xanımın zəngin elmi fəaliyyətinin gənc alimlərə çatdırılması baxımından əhəmiyyətli olduğunu söyləyib. Bildirib ki, böyük alimin illər öncə söylədiyi "Həkim xəstənin ağrılarını öz ağrıları kimi yaşamalıdır" fikri bu gün də olduqca aktualdır.

O, həmçinin Zərifə xanım Əliyevanın gözün zədələnməsinin öyrənilməsi və profilaktikası sahəsindəki bir sıra orijinal kəşflərinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.Averbax adına mükafatına layiq görüldüyünü diqqətə çatdırıb. Qeyd edib ki, Zərifə xanım keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim idi.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova insanlara nur bəxş edən, qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə əbədi yer qazanan Zərifə xanım Əliyevanın tibb elminin ən uca pillələrinə yüksəldiyini, nümunəvi bir həyat yolu keçdiyini vurğulayıb. Qeyd edib ki, fədakar alim və qayğıkeş insan Zərifə xanım Əliyeva dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaradıb və praktik olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub.

İ.Hüseynova bildirib ki, tanınmış oftalmoloq Z.Əliyeva eyni zamanda həmvətənlərinin qayğısına qalan humanist insan idi. Onun həyat ideyaları və şəxsiyyəti bu gün müasir Azərbaycan gəncliyi üçün bir örnəkdir.

Daha sonra çıxış edən AMEA-nın A.İ.Qarayev adına Fiziologiya İnstitutunun direktoru, biologiya elmləri doktoru Ulduz Həşimova oftalmoloq-alimin həyatının böyük bir hissəsinin Fiziologiya İnstitutu ilə bağlı olduğunu söyləyib. Qeyd edib ki, 1979-cu ildə Zərifə Əliyevanın təklifi ilə AMEA Fiziologiya İnstitutunda Görmə orqanının fiziologiyası və peşə patologiyası problem laboratoriyası yaradılıb, həmin laboratoriyada az intensivli zərərli istehsal amillərinin görmə orqanına fizioloji, klinik, funksional, histoloji təsir mexanizmlərinin öyrənilməsi üzrə multidissiplinar araşdırmalar aparılıb. Bu elmi tədqiqatların nəticəsində Z.Əliyeva bir neçə monoqrafiya, o cümlədən bütün dünyada qəbul edilmiş "Şin istehsalında gözün peşə patologiyası", "Xroniki yod intoksikasiyası ilə bağlı oftalmologiya" və "Yod sənayesində gözün peşə xəstəliklərinin profilaktikası" monoqrafiyalarını çap etdirib. Akademikin adını daşıyan Milli Oftalmologiya Mərkəzi bu gün qabaqcıl tibb müəssisəsi kimi dünya miqyasında tanınır, Zərifə xanımın adına layiq elmi və praktiki işlər həyata keçirir.

Tədbirdə "Modern inkişaf və ailə" cəmiyyətinin sədri, Nəsimi rayon Ağbirçəklər cəmiyyətinin sədri, YAP Respublika Qadınlar Şurası İdarə Heyətinin üzvü Zərifə Quliyeva çıxış edərək görkəmli alimlə bağlı xatirələrdən danışıb. Sonda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı Pənah Hacıyev oftalmoloq-alim Zərifə Əliyevaya həsr olunan "Ana" şeirini səsləndirib.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# Bütün varlığı ilə nur olan insan

**Azərbaycan xalqı öz adlı-sanlı qadınları ilə haqlı olaraq həmişə fəxr etmişdir. Ölkəmizin inkişafında, elmin, səhiyyənin, mədəniyyətin tərəqqisində onların əvəzsiz xidmətləri olmuşdur. Azərbaycan qadınının şərəfini daim uca tutmuş, bənzərsiz həyatı və yorulmaz fəaliyyəti ilə ornək olan Zərifə xanım Əliyeva nurdan yaranan, bütün varlığı ilə nur olan təkrarsız bir insan idi. Elə buna görə də təsadüfi deyil ki, onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Onun təbib əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və dərin zəkasından çağlayan ilahi nuru onu tanıyan adamların mənəvi dünyasına daim işıq salır.**

Tarix bizə bir şəxsin simasında rəhbərlik və elmi tədqiqatçılıq istedadının, tükənməz əməksevərlik və ramedici nəzakətliliyin xoşbəxt vəhdətini birləşdirən çox az nümunələr vermişdir. Akademik Zərifə xanım Əliyeva məhz bütün bu keyfiyyətlərə malik olmuşdur. Əlçatmaz yüksəklik, müdriklik, həyatın mənasını dərk etmək məfhumu vardır.

Təbiətin ona bəxş etdiyi keyfiyyətlər, uzun illər boyu yorulmaq bilmədən çalışmaq onu harmonik bir şəxsiyyətə çevirmişdi.

Zərifə xanım Əliyevanın həyatının mənasını təşkil edən nə varsa: elmi, gözəl ailəsi, hamısı onun nuruna qərq olmuşdu.

Şübhə yoxdur ki, bütün potensial imkanlarını realizə etmək və inkişaf etdirmək onu formalaşdıran mühitdə mümkün olmuşdur. Zərifə xanım istedadlı və gözəl bir ailədə - görkəmli dövlət xadimi, Azərbaycanın böyük səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində anadan olmuşdur. Belə ki, bu böyük insanın əksər xüsusiyyətləri qızı Zərifə xanıma da xas olmuşdur.

Ən yüksək keyfiyyətlər - səmimilik, alicənablıq, qayğıkeşlik, birinci növbədə özünə, daha sonra ətrafdakılara qarşı tələbkarlıq, sözü ilə işinin birliyi, vətənpərvərlik, xalqına, Vətəninə və torpağına sönməz məhəbbət Zərifə xanım Əliyevaya xas cəhətlər idi.

Görkəmli dövlət xadimi, böyük siyasətçi Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı olan Zərifə xanım onun Azərbaycan xalqının həyat səviyyəsinin yüksəlməsində və ölkənin inkişafında apardığı böyük işlərdə etibarlı dayaq olmuşdur.

Tibb İnstitutunu bitirdikdən və Moskva şəhərində Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmologiya üzrə ixtisaslaşma kursu keçdikdən sonra 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi fəaliyyətə başlayaraq ordinatorluqdan baş elmi işçiliyə qədər yaradıcılıq yolu keçərək böyük mütəxəssis kimi formalaşmışdır.

Elmi fəaliyyətinin ilk dövründə Zərifə Əliyeva tərəfindən traxomanm erkən diaqnostikası, müalicəsi və profilaktikasına dair aktual elmi araşdırmalar aparılmışdır.

Namizədlik dissertasiyasında əksini tapmış bu elmi axtarışların nəinki elmi, həmçinin böyük praktik əhəmiyyəti vardır. Minlərlə insanın korluqdan xilas olaraq ictimai faydalı əməyə qayıtmasını mümkün etməsi bu elmi tədqiqatların böyük dəyərini subut edir. Beləliklə, Azərbaycanda traxoma xəstəliyinin ləğvinə yönəldilmiş kompleks tibbi tədbirlər məhz Z.Ə.Əliyevaya məxsusdur. Malyariya və traxomaya qarşı fədakar mübarizə aparan Əziz Əliyev estafeti qızına vermiş oldu. Fundamental elmi axtarışlardan maksimum praktik nəticə əldə etmək xüsusiyyəti Zərifə Əliyevanın həm bu, həm də sonrakı işləri üçün xarakterikdir.

Zərifə Əliyevanın bütün sonrakı elmi fəaliyyəti tibb elminin nailiyyətlərinin oftalmologiyada tətbiqinə yönəlmişdir. Bununla birgə, o həmişə oftalmologiyada kliniki istiqamətin tərəfdarı olmuşdur.

Z.Ə.Əliyeva 60-cı illərdə dünya təcrübəsində birincilər sırasında görmə üzvünün peşə xəstəlikləri problemi üzrə geniş elmi axtarışlara başlamışdır. Sənaye zərərlərinin görmə orqanına toksik təsirinin öyrənilməsinə bir sıra elmi əsərlər həsr edilsə də, kimya istehsalının müxtəlif inqrediyentlərinin görmə orqanlarına təsiri az işıqlandırılmışdır. Kimya istehsalının bəzi yeni sahələri ilə əlaqədar olan peşə xəstəlikləri xüsusilə az öyrənilmişdi. Halbuki kimyəvi inqrediyentlərin müxtəlif kombinasiyaları bir çox hallarda insan orqanizminə və görmə orqanına zərərli təsir göstərir. Kimyəvi maddələrin uzunmüddətli kompleks təsiri nəticəsində orqanlarda distrofik, proliferativ proseslər əmələ gəlir. Bir çox inkişaf etmiş ölkələrdə şin və yod istehsalı yüksək səviyyədə olsa da, bu sahələrdə istehsal tullantılarının görmə orqanına toksik təsirinin öyrənilməsinə aid müfəssəl işlər yox idi. Zərifə xanım Əliyevanın elmi tədqiqatlarının əsas istiqamətlərindən biri də məhz yod və şin sənayesinin zərərli təsirlərindən gözün zədələnməsinin öyrənilməsi olmuşdur. Dünya ədəbiyyatında bu fundamental tədqiqatın analoqu yoxdur. Bu problem üzrə Z.Ə.Əliyevanın elmi tədqiqatlarının nəticələri haqda dərc olunmuş 30-dan çox elmi işdə tetraxloretilen, pestisid, stirol buxarlarının orqanizmə xroniki təsiri zamanı görmə üzvünün və onun funksiyalarının vəziyyəti əks etdirilir. Məhz bu dövrdən başlayaraq onun elmi axtarışlarının əsas mövzusu Azərbaycanın kimya sənayesinin bəzi sahələrində çalışan fəhlələrin görmə orqanının vəziyyətini tədqiq etmək olmuşdur.

Bu problem üzrə Z.Ə.Əliyevanın elmi tədqiqatlarının xarakter cəhəti yaradıcılıq axtarışlarının genişliyi, təhlillərin dərinliyi və elmi uzaqgörənliyidir. Bu tədqiqatların nəticələri haqqında dərc olunmuş 30-dan çox elmi işdə görmə orqanının vəziyyəti və onun funksiyasına stirol, tetraxloretilen, pestisid və digər peşəyönümlü istehsalat amillərinin təsiri əks etdirilmişdir.

Z.Ə.Əliyeva əldə olunmuş nəticələrlə kifayətlənməyərək tədqiqatların mövzusunu daha da dərinləşdirmiş və dünyada ilk dəfə olaraq görmə orqanına az miqdarda olsa da peşə amillərinin təsirini aşkar edir. Qeyd etmək lazımdır ki, Z.Ə.Əliyeva aparılmış elmi axtarışların nəticələrini mütəmadi olaraq tələbələri ilə təhlil edərək, onları elmi məqalə, məruzə və metodik tövsiyə formasında nəşr etdirirdi.

Aparılmış fundamental elmi işlərin nəticələri Zərifə xanımın 1976-cı ildə Helmhols adına Elmi-tədqiqat göz xəstəlikləri institutunda müdafiə etdiyi doktorluq dissertasiyasının əsasını təşkil edirdi. Bu məşhur institutun dahi alimləri və ixtisaslaşmış şuranın üzvləri işə yüksək qiymət verməklə çoxillik tədqiqatların nəticələrini monoqrafiya, dərs vəsaiti və metodik tövsiyə şəklində çap etdirməyi məsləhət görürlər.

Yaradıcılıq uzaqgörənliyi və həyatın nəbzini düzgün təyin etmək bacarığı Z.Ə.Əliyevaya dünya praktikasında ilk dəfə olaraq istehsalat şəraitində - "Bakı məişət kondisionerləri" zavodunun sexlərində elmi-tədqiqat laboratoriyasını yaratmağa imkan verdi. Bu laboratoriya elmi axtarışlar aparmaqla yanaşı görmə orqanının xəstəliklərinin erkən aşkar olunması və müalicəsində böyük rol oynayırdı. Bu laboratoriyanın topladığı elmi materiallar Z.Əliyevanın üç tələbəsinin namizədlik dissertasiyasının mövzusunu təşkil edirdi. Böyük alimin elmi araşdırmalarının çoxistiqamətliliyi bu gün də gənc oftalmoloqların həmişə müraciət etdikləri ən mötəbər mənbə kimi olduqca dəyərlidir.

**Səməd FƏTƏLİYEV,**
**Şamaxı Mərkəzi Rayon Xəstəxanasının baş həkimi, YAP üzvü.**

*Binəqədi rayonu*

# Gənclər ordu sıralarına yollanmaqdan qürur duyurlar

**Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi və onların Silahlı Qüvvələrdə xidmətə hazırlanması günümüzün ən vacib və təxirəsalınmaz vəzifələrdən biridir. Məhz buna görə də paytaxtın Binəqədi rayonundakı ümumtəhsil məktəblərində gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə maksimum səy göstərilir, hər bir çağırışa qədər və çağırışçı gənc ordu sıralarına gedəcəyi günü səbirsizliklə gözləyir, bir sözlə, onların hər biri Vətəni, torpağı göz bəbəyi kimi sevirlər.**

Aprelin 1-dən ölkə başçısının sərəncamı ilə gənclərin həqiqi hərbi xidmətə çağırışına başlanmışdır. İlıq nəfəsli yaz günlərində rayonun gəncləri sidq ürəklə, böyük coşqu ilə əsgəri xidmətə yola düşürlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon idarəsi 3-cü mədən küçəsinin 119-cu korpusunda yerləşir. Biz ikimərtəbəli, geniş əraziyə malik olan idarədə olarkən nahar fasiləsinə az qalırdı. Milli musiqimiz, gəncləri hərbi-vətənpərvərlik tərbiyəsinə səsləyən plakat və şüarlar mərasimə qatılan müharibə və əmək veteranlarında, valideynlərdə, sabahın əsgərlərində xoş ovqat yaradırdı.

Hiss olunurdu ki, gənclər ordu sıralarında xidmət etməkdən qürur duyur, bu günü həyatın ən gözəl anı hesab edirlər.

Gənclərin həqiqi hərbi xidmətə yolasalınma mərasimində idarənin rəisi, polkovnik-leytenant Rövşən Əliyev çıxış edərək dedi:

—Dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan qüdrətli ordumuz son illərdə daha da möhkəmlənmiş, mütəşəkkil hərbi qüvvəyə çevrilmişdir. Azərbaycan ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir. Bu gün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Vaxtilə ulu öndərimiz Heydər Əliyev demişdir ki, hər bir gənc hər bir ata-ana, hər bir valideyn öz oğlunu böyüdərkən ona ən əvvəl nəsihət verməlidir ki, sənin birinci borcun orduda xidmət etməkdir. Vətəni müdafiə etməyə hazır olmaqdır, döyüş qabiliyyəti əldə etməkdir və döyüşə hazır olmaqdır.

Bizim ordumuz möhkəmlənir, möhkəmlənir ki, Azərbaycanın özünə layiq qüdrətli ordusu olsun. Möhkəmlənir ki, Azərbaycan ordusu bu gün də, gələcəkdə də ölkəmizə qarşı mümkün olan təcavüzün qarşısını alsın, nankor ermənilərin tapdağında olan torpaqlarımız tezliklə azad olsun, daşnaklar qədim Oğuz ellərində məkrli niyyətlərini həyata keçirə bilməsinlər. Polkovnik- leytenant Rövşən Əliyev çıxışının sonunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırladı: **"Orduya ayrılan xərclər hər il artır. Büdcədə nəzərdə tutulmuş xərclər artır. Bundan sonra da orduya ayrılacaq vəsaitlər artırılacaqdır. Azərbaycanın iqtisadi potensialı güclənir. Ölkə zəngin dövlətə çevriləcəkdir. Əlbəttə, bütün başqa sahələrlə yanaşı, ordu quruculuğunda da addımlar atılacaqdır. Biz öz ordu, hərbi potensialımızı gücləndirməliyik. Artıq bu istiqamətdə çox önəmli addımlar atılır".**

Gənclərin əsgəri xidmətə yolasalınma mərasimində Mahir Babayev valideynlər adından çıxış edərək vurğuladı ki, artıq neçə illərdir ki, torpaqlarımızın 20 faizdən çoxu düşmən tapdağı altındadır. Ölkə başçısının məqsədyönlü fəaliyyəti sayəsində çox tezliklə ərazilərimiz işğaldan azad olunacaqdır. Ermənilər ordumuzun gücünü, qüdrətini 2016-cı ilin aprel döyüşlərində yaxşı gördülər...

Tədbir başa çatdıqdan sonra gənclərdən Murad Dadaşzadə, Elvin Nurəliyev, Mirağa Əzizov, Səbuhi Babayev və başqaları mərasim iştirakçılarının xeyir-duası ilə əsgəri xidmətə yola düşdülər.

**Qədir ASLAN,**
**"Respublika".**

# Bakı Şəhər İcra Hakimiyyəti korrupsiyaya qarşı

**Bakı Şəhər İcra Hakimiyyətində aparatın və struktura daxil olan təsərrüfat xidmətlərinin rəhbərlərinin iştirakı ilə iş forma və metodlarına, eləcə də neqativ hallar və korrupsiya ilə mübarizə məsələlərinə həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ölkə başçısının apardığı çoxşaxəli islahatların bir çox neqativ halların qarşısını aldığını və bu sahələrdə şəffaflığın təmin olunduğunu bildirmişdir. O, Prezident İlham Əliyevin dövlət qulluqçuları qarşısında qoyduğu tələblərə toxunaraq bildirmişdir ki, hər bir rəhbər işçi öz fəaliyyətində şəffaflıqla çalışmalı, hər hansı korrupsiya hallarına və pozuntulara yol verməməli, dövlət büdcəsindən səmərəli, düzgün istifadə etməli, ən vacibi isə bütün işlərini "təmiz əllərlə" görməlidir.**



İcra hakimiyyətinin başçısı hələ də bəzi neqativ halların mövcud olduğunu qeyd etmiş, belə hallara qarşı ciddi mübarizə aparılacağını və aşkarlanan faktlar barədə hüquq mühafizə orqanlarına müraciət ediləcəyini bildirmişdir.

Struktura daxil olan xidmətlərin işlərindən danışan Eldar Əzizov bildirmişdir ki, ölkə başçısının Bakı şəhərinin lift təsərrüfatının yenilənməsi ilə bağlı müvafiq sərəncamının icrası məqsədi ilə Almaniya Federativ Respublikasının Wittur Holding GMBH şirkəti ilə müqavilə imzalanmasına hazırlıq gedir. Eldar Əzizov liftlərin qiyməti haqqında ictimaiyyətə konkret məlumat verilməsinin vacibliyini vurğuladı və şəffaflığın təminatı üçün gələcəkdə bütün müqavilələrin və alınan malların qiymətlərinin ictimaiyyətə açıqlanacağını bildirdi. Məktəbəqədər təhsil müəssisələrinə uşaq qəbulunda yol verilən bəzi neqativ hallara toxunan icra başçısı bu ilin sonuna kimi bağçalarda elektron qəbul formasına keçiddən sonra bu sahədə də şəffaflığın təmin ediləcəyinə əmin olduğunu vurğulamışdır.

Eldar Əzizov paytaxtda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri barədə məlumat verərək paytaxtdakı məhəllələrin təmir-abadlaşdırılması işlərində çox fəal olduqları və böyük işlər gördükləri üçün Heydər Əliyev Fondunun Birinci vitse-prezidenti Leyla Əliyevaya və onun rəhbəri olduğu İDEA təşkilatına öz minnətdarlığını bildirmişdir.

İcra başçısı yaxın gələcəkdə şəhərdə aparılacaq işlər və şəhər təsərrüfatındakı islahatlar barədə də geniş məlumat vermişdir.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**

# ADNSU, BP və "British Council-ın Azərbaycandakı ofisi" arasında üçtərəfli niyyət məktubu imzalanıb



Aprelin 22-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) British Petrolium Exploration (BP) və "British Council-ın Azərbaycandakı ofisi" arasında universitetin 90 nəfər müəlliminə və 200 tələbəsinə intensiv ingilis dili təlimi keçirilməsinə dair sənədin imzalanma mərasimi keçirilib. Tədbirdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Təhsil Nazirliyinin nümayəndəsi, British Council-ın Azərbaycandakı ofisinin direktoru Samr Şah, BP-nin tərəfdaşı olan şirkətlərin nümayəndələri, universitetin professor-müəllim heyəti iştirak ediblər.

ADNSU-nun rektoru, professor M.Babanlı qonaqları salamladıqdan sonra imzalanacaq sənədin əhəmiyyəti barədə məlumat verib. O ali təhsilin keyfiyyətinin yüksəldilməsi işində qabaqcıl dünya təcrübəsinin öyrənilməsinin önəmini qeyd edərək bunun üçün professor-müəllim heyətinin və tələbələrin, xüsusilə ingilis bölməsində tədris aparan əməkdaşların və təhsil alan gənclərin ingilis dilinə yüksək səviyyədə yiyələnmələrinin vacibliyini vurğulayıb. Həmçinin, rektor ADNSU-nun bununla bağlı hazırladığı təklif layihəsinə müsbət münasibət bildirməsinə və qısa müddət ərzində maliyyə vəsaiti ayırdığına və təşkilati işləri həll etdiyinə görə BP şirkətinə təşəkkürünü ifadə edib.

BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli təmsil etdiyi şirkətin ölkənin aparıcı təhsil layihələrində iştirakına xüsusi diqqət yetirdiyini deyib. ADNSU kimi aparıcı universitetlərdə texniki sahədə ingilis dilinin tədrisinin əhəmiyyətindən söz açan B.Aslanbəyli yeni layihənin əsas məqsədinin təkcə tələbələrə ingilis dili vərdişlərini aşılamaq deyil, eyni zamanda, texniki sahədə tədrisdə ingilis dilinin yaxşılaşdırılmasına şərait yaratmaq olduğunu bildirib. Bununla da ADNSU-da ingilis bölmələri ilə yanaşı, Azərbaycan bölmələrində də texniki ingilis dilinin tədrisi nəzərdə tutulmuşdur.



British Council-ın Azərbaycandakı ofisinin direktoru Samr Şah ADNSU ilə artıq neçə ildir ki, əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edərək belə bir irimiqyaslı layihədə universitetlə və BP Afi) ilə birlikdə iştirak etməkdən məmnun olduqlarını bildirib. Layihənin əsas məqsədinin ADNSU-da texniki və işgüzar ingilis dili üzrə ixtisaslaşmış müəllimlərin formalaşdırılmasıdır.

Daha sonra tərəflər arasında niyyət məktubu imzalanıb.

Qeyd edək ki, müqaviləyə əsasən təlimlərə mayın 1-dən start verilməsi nəzərdə tutulub. İyul-avqust ayları istisna olmaqla (müəllimlər məzuniyyətdə olduqları üçün təlimlər onlayn şəkildə həftəlik dərs tapşırıqlarının verilməsi formasında həyata keçiriləcək) həftədə 3 dəfə 2 tədris saatı olmaqla dekabrın 31-dək davam edəcək.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# Məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsinin ölkəmizdə sahibkarlıq fəaliyyətinin inkişafında xüsusi rolu olacaqdır

**1991-ci ildə dövlət müstəqilliyimiz bərpa olunsa da, qısa müddət sonra dövlətçiliyimiz məhv olma təhlükəsi ilə üzləşmişdi. Ona görə də ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidi ilə respublikamızda hakimiyyət rəhbərliyinə qayıtdı. Ulu öndər ictimai-siyasi həyatda sabitliyin təmin edilməsinə nail olmaqla yanaşı, hüquqi, dünyəvi dövlətin qurulması istiqamətində müstəsna xidmətlər göstərmiş, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsini müasir, sivil, demokratik dünyaya inteqrasiya etmənin əsas yolu hesab edərək, ölkəmizdə məqsədyönlü şəkildə yeni məzmunlu siyasi, iqtisadi və hüquqi islahatların həyata keçirilməsinin əsasını qoymuşdur. Ulu öndərin bilavasitə rəhbərliyi altında hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi təsbit edilmiş, müddəalarının üçdəbiri insan hüquq və azadlıqlarına həsr edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi elan edilmişdir. Ümummilli liderin rəhbərliyi ilə aparılmış məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizin keçmiş sovetlər dövründən miras qalmış hüquq sistemi demokratik prinsiplər əsasında yenidən qurulmuş, mütərəqqi qanunvericilik aktları qəbul edilmiş, respublikamızda birinci, apelyasiya və kassasiya instansiyalarından ibarət yeni - 3 pilləli müstəqil məhkəmə sistemi yaradılmışdır.**

Ulu öndərin layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlərlə ölkə həyatının bütün sahələrində uğurlu nəticələrin əldə edilməsi ənənəsi davam etdirilmiş, müstəqilliyimizin əsasları xeyli dərəcədə möhkəmlənmiş, hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu yeni, özünün daha yüksək mərhələsinə çatmışdır. Ölkəmizin beynəlxalq nüfuzunun, iqtisadi qüdrətinin artırılması ilə yanaşı, insan hüquq və azadlıqlarının qorunması prioritet vəzifələr siyahısına daxil edilmiş, bu sahədə məqsədyönlü və ardıcıl tədbirlər həyata keçirilməklə, ulu öndərin ideyalarının reallığa çevrilməsi təmin edilmişdir. Cənab Prezident dövlət başçısı kimi fəaliyyətə başladığı ilk vaxtlardan ölkəmizdə məhkəmə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirləri daim gündəmdə saxlamışdır. Odur ki, 19 yanvar 2006-cı il tarixdə məhkəmə sisteminin müasirləşdirilməsi barədə Fərmanı imzalamaqla, məhkəmə islahatının yeni mərhələyə keçməsinin başlanğıcını qoymuşdur.

Son illərdə dövlət başçısının məhkəmə-hüquq islahatları çərçivəsində xüsusi diqqət yetirdiyi istiqamətlər ölkədə cinayət-hüquqi siyasətin liberallaşdırılması, cəzanın humanistləşdirilməsi, cəzadan azadetmə institutunun geniş tətbiqi sahələridir. Cənab Prezidentin 2017-ci il 10 fevral tarixdə imzaladığı “Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prossessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə” Sərəncam bu sahədə prinsipial addım olmuşdur. Həmin Sərəncamın icrası olaraq hazırlanmış və Prezident Administrasiyası tərəfindən təkmilləşdirilmiş qanun layihəsi dövlət başçısı tərəfindən Milli Məclisə göndərilmiş və 20 oktyabr 2017-ci il tarixdə qəbul edilmişdir. Bu qanunla CM-nə cinayət-hüquqi siyasətin yumşaldılması ilə bağlı mühüm dəyişikliklər edilmiş, cinayət məsuliyyətindən azadetmənin yeni mexanizmləri yaradılmış, həmçinin iqtisadi sahədə törədilən bəzi cinayətlər dekriminallaşdırılmış, CM-də “İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azadetmə” adlı yeni 73-2-ci maddə yaradılmışdır. 2017-ci il dekabrın 1-dən qüvvəyə minən bu dəyişikliyə əsasən, CM-nin 209.1, 209.2.2 və 213-cü maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. CM-nin 192, 192-1, 193, 195, 195-1, 196, 197, 198, 202-2, 203, 203-1.1, 205-2, 209.2.1, 209.3, 210, 211, 212 və 213-2-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.

Cənab Prezident məhkəmə-hüquq islahatlarını sonacan davam etdirmək niyyətində olduğunu 3 aprel 2019-cu il tarixdə imzaladığı “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ilə bir daha təsdiq etdi. Fərmanı qısa şəkildə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının məntiqi davamı, islahatların aparılmasının yeni keyfiyyət mərhələsi kimi səciyyələndirmək olar. Fərman ölkədə məhkəmə hakimiyyətinin müstəqilliyini gücləndirmək ilə yanaşı, ona xalqın ictimai etimadının artmasına, nüfuzunun yüksəldilməsinə, vətəndaşların hüquq və qanuni mənafelərinin etibarlı müdafiəsinin, ədalət mühakiməsinin səmərəliliyinin inkişafına xidmət edəcəkdir. Burada ölkəmizin hüquq sistemində konseptual səviyyədə, çoxşaxəli (həm qanunvericilik, həm də hüquq tətbiqetmə fəaliyyəti aspektlərində) əsaslı dəyişikliklərin edilməsi nəzərdə tutulmuşdur. Şübhəsiz, bir yazıda Fərmanda qaldırılmış bütün məsələlərə, üstəlik, konseptual əhəmiyyət kəsb edən müddəalara toxunub şərh vermək mümkün olmadığından, yalnız bəzi məsələlər üzrə qısa fikirlərimizi bölüşmək istəyirik.

Fərmanda qarşıya qoyulan vəzifələrdən biri mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən, sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq qanunvericiliyin təkmilləşdirilməsi, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılmasıdır.

Bununla bağlı qeyd etməliyik ki, müasir Azərbaycan Respublikasında ədalətli iqtisadi və sosial qaydaların bərqərar edilməsinə nail olmaq istiqamətində mütəmadi tədbirlər həyata keçirilmiş, cəmiyyətimizin yeni ictimai-iqtisadi və siyasi modeli yaradılmışdır. Qanunvericilik aktlarında cəmiyyətimizin və dövlətimizin iqtisadi inkişafının tələbləri nəzərə alınmış, sərbəst bazar iqtisadiyyatından yaranan ictimai münasibətlərin etibarlı hüquqi mühafizəsi təsbit edilmişdir. Konstitusiyada bazar iqtisadiyyatı münasibətlərinin inkişafının təmin edilməsini nəzərdə tutan müddəalar bilavasitə təsbit olunmuşdur. Dövlət başçısı cənab İlham Əliyev ölkəmizdə dayanıqlı iqtisadi inkişafın təmin edilməsini uğurlu dövlət quruculuğu siyasətinin əsas hədəflərindən biri kimi dəyərləndirmişdir.

Ölkəmizdə bazar iqtisadiyyatının inkişafı ilə əlaqədar yaranan yeni növ münasibətlərin neqativ tərəflərinin minimuma endirilməsi, iqtisadi fəaliyyət sahəsində törədilən hüquq pozuntularına görə məsuliyyət müəyyən edən normaların tətbiqi prosesində yaranan çətinliklərin aradan qaldırılması, sahibkarlığın dəstəklənməsi, vergidən yayınmanın və “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması, vergitutma bazasının genişləndirilməsi, vergi güzəştlərinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirilmişdir. 2 iyul 2013-cü il tarixdə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında”, 20 oktyabr 2015-ci il tarixdə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanunlar qəbul edilmişdir.

Bu sırada “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 30 noyabr tarixli 1356-VQD nömrəli Qanunu xüsusi qeyd etmək lazımdır. Qanun ölkədə sahibkarlığın, biznes mühitinin daha da inkişafına nail olmaq məqsədi ilə qəbul edilmişdir. Burada özəl sektorda çalışan işçilərin əməkhaqqından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması, pərakəndə ticarət və ictimai iaşə sektorunda dövriyyənin rəsmiləşdirilməsində ictimai nəzarətin gücləndirilməsi və bu işdə istehlakçıların stimullaşdırılması məqsədilə istehlakçılar tərəfindən belə obyektlərdə xərclənən vəsaitlərin ƏDV-nin müəyyən hissəsinin istehlakçılara geri qaytarılması, sadələşdirilmiş vergi dərəcəsinin bütün ölkə ərazisində 2 faizə endirilməsi, sahibkarlıq subyektlərinə şəffaf uçot apardıqları halda əlavə vergi güzəştinin verilməsi, Kiçik və Orta Biznes klasterinə daxil olan şirkətlərin KOB reyestrində qeydiyyata alındıqları andan etibarən 7 il müddətinə mənfəət, torpaq və əlavə dəyər vergisindən azad edilməsi, mikrosahibkarlıq subyekti olan fərdi sahibkarlar və hüquqi şəxslərin əmlak vergisindən azad edilməsi və s. çox mühüm məsələlər öz əksini tapmışdır. Ümumiyyətlə, Vergi Məcəlləsinə edilən bu dəyişikliklər dövlətimizin 2000-ci ildən başlayaraq bu sahədə həyata keçirdiyi islahatların qlobal, kompleks xarakterli güzəşt paketi kimi qiymətləndirilə bilər.

Bundan başqa, qüvvədə olan qanunvericiliyə əsasən, vergi ödəyicisi ona hesablanmış verginin məbləği ilə razı olmadığı halda, verginin ödənilməsini dayandırmadan bilavasitə vergi nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə şikayət verə bilər. Vergi ödəyicisinin şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasını ödəməmək hüququ vardır. Vergi ödəyicisi və ya başqa borclu şəxs tərəfindən vergi orqanına (vəzifəli şəxsə) verilən şikayət, qeyd edilən bu sonuncu hal istisna olunmaqla, şikayət edilən qərarın (aktın) və ya hərəkətin icrasını dayandırmır. Şikayət edilən qərar (akt) və ya hərəkət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda, şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandırır. Qərarın (aktın) və ya hərəkətin icrasını tam və ya qismən dayandırmaq barədə qərarı həmin aktı qəbul etmiş vergi orqanının rəhbəri və ya yuxarı vergi orqanı qəbul edir.

Yeri gəlmişkən, dövlət başçısının tapşırığına uyğun olaraq Vergilər Nazirliyi tərəfindən kölgə iqtisadiyyatının aradan qaldırılması, şəffaflığın artırılması istiqamətində kompleks xarakterli ciddi tədbirlərin görüldüyü, vergi ödəyiciləri ilə qarşılıqlı dialoq şəklində bir çox məsələlərin (o cümlədən xarici şirkətlərin, beynəlxalq təşkilatlar və ekspertlər, mühasibat uçotunun beynəlxalq standartlara keçidi və s.) həll və icra olunduğu qeyd edilməlidir. Düşünürük ki, ümumbəyannamə sisteminə keçid bu sırada növbəti addımlardan biri ola bilər.

Sadalananlar, o cümlədən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi, sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ayrıca ixtisaslaşmış məhkəmənin yaradılması ölkədə sahibkarlıq mühitinin daha da inkişafına, sahibkarlıq fəaliyyəti subyektlərinin hüquqlarının daha etibarlı müdafiəsinə kömək edəcəkdir. Bu, eyni zamanda ölkədə investisiyaların qoyuluşunun sürətlənməsinə, bu prosesin təşviq edilməsinə xidmət edəcəkdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”nə əsasən, investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biridir. Fərmanda haqlı olaraq qeyd edildiyi kimi, xarici investorlar tərəfdaşlıq zəminində ölkədə əlverişli investisiya qorunma sisteminin mövcudluğuna xüsusi diqqət ayırırlar. Odur ki, investisiya imkanlarının genişlənməsinə imkan verən çərçivənin qurulması mühüm əhəmiyyət kəsb edir. Düzdür, ölkədə investisiya fəaliyyəti, xarici investisiyanın qorunması haqqında qanunlar qəbul edilmişdir. Lakin iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatların genişləndirilməsi, xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsi, investisiyaların qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır. Bu baxımdan hesab edirik ki, cənab Prezidentin 18 yanvar 2018-ci il tarixli Sərəncamına uyğun olaraq hazırlanmalı olan yeni “İnvestisiya fəaliyyəti haqqında” Qanunda beynəlxalq təcrübə ilə yanaşı, bu fərmanın da müddəaları nəzərə alınmalıdır.

Bəhs etdiyimiz Fərmanda qarşıya qoyulan vəzifələrdən biri də cəza siyasətinin humanistləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsidir. Fərmanda bu istiqamətdə işlərin bir konsepsiya şəklində davam etdirilməsi müəyyən edilmişdir. Fikrimizcə, bu sahədə həyata keçirilən tədbirlərin tezis şəklində qeyd etdiyimiz aşağıdakı məsələləri də əhatə etməsi məqsədəuyğun olar: 1) Cinayət hüququnda yeni məzmun və modeldə inzibati preyudisiya institutunun yaradılması və tətbiqinin genişləndirilməsi; 2) Cinayət məsuliyyətindən və cəzadan azadetmənin mühüm mexanizmlərindən biri olan amnistiya aktlarının qəbulu zamanı cinayət hüququnun əsas müddəalarına riayət edilməsinin təmin edilməsi; 3) Azərbaycan Respublikasında Kriminoloji Tədqiqatlar Mərkəzinin yaradılması; 4) Cinayət işləri üzrə məhkəmə icraatının sadələşdirilməsi, çevik proses və icra mexanizminin keyfiyyətinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi və s.

Yekun olaraq göstəririk ki, Prezidentin 3 aprel 2019-cu il tarixli Fərmanında ölkədə ədalətli hüquq sisteminin formalaşdırılmasına nail olmaq üçün müvafiq dövlət orqanları qarşısında mühüm vəzifələr qoyulmuşdur. Odur ki, həmin orqanlar tərəfindən peşəkar mütəxəssislərin, hüquqşünas alimlərin iştirakı ilə bu sahədə geniş elmi müzakirələrin, “dəyirmi masa”ların keçirilməsi elmi-nəzəri və təcrübi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanmasına kömək edəcəkdir.

**Nazim ƏLİYEV,**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, hüquq üzrə elmlər doktoru.**
**Mirəli KAZIMOV,**
**Bakı Dövlət Universitetinin hüquq fakültəsinin dosenti, hüquq üzrə elmlər doktoru.**

# AzMİU-da Azərbaycan və Türkiyə ali təhsil müəssisələri rəhbərlərinin iştirakı ilə geniş “dəyirmi masa”



**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) ölkəmizin aparıcı ali təhsil müəssisələrinin rəhbərləri və Türkiyənin nüfuzlu İstanbul Texnik Universitetindən gələn nümayəndə heyətinin iştirakı ilə “dəyirmi masa” keçirilib. “Dəyirmi masa”da İTU rektoru professor Mehmet Karacanın “İTU nümunəsində XXI əsrdə universitetlərin dünəni, bu günü və sabahı” mövzusunda məruzəsi ətrafında maraqlı müzakirələr, qarşılıqlı fikir mübadiləsi aparılıb.**

Tədbiri giriş sözü ilə açan AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ölkəmizin ali məktəb rektorlarını və türkiyəli qonaqları salamlayıb. Rektor ötən gün universitetin Elmi Şurasında İTU rektoru Mehmet Karacaya AzMİU-nun Fəxri doktoru adı verildiyini və İTU ilə memarlıq ixtisası üzrə ikili diplom layihəsini nəzərdə tutan Niyyət protokolu imzalandığını Masa iştirakçılarının diqqətinə çatdırıb. Daha sonra G.Məmmədova bu gün universitetdə keçirilən görüşün mühüm əhəmiyyətini vurğulayıb, həmkarlarını İTU-nun təcrübəsini öyrənməyə səsləyib.

“Dəyirmi masa”da geniş məruzə ilə çıxış edən İTU rektoru Mehmet Karacanın çıxışı maraqla qarşılanıb. O, müasir dünyanın tələblərinə uyğun olaraq bu gün təhsilin forma və məzmununun dəyişdiyini, yeni biznes strukturlarının yaradılması ehtiyacının ortaya çıxmasının vacibliyini, təhsil alanların biznes ideyalarının gerçəkləşməsi üçün startap layihələrinin önəmini vurğulayıb. Rektor İTU-da yaradılan texnoparkın fəaliyyətindən də danışıb, universitet-sənaye işbirliyinin əməkdaşlığının faydalı nəticələrinə diqqət çəkib: “Texnopark yaradılması ənənəsi dünyanın bir çox inkişaf etmiş ölkələrində tətbiq olunur. Bizdə 1998-ci ildən bu təcrübədən istifadə olunur. Biz dünya ölkələrindəki uğurlu təcrübələri tətbiq etməklə bu sahədə inkişafa nail olmuşuq. Bu gün tələbələrimizi, gənc tədqiqatçılarımızı, habelə ölkəmizin sənaye şirkətlərini texnoparka cəlb edirik, qarşılıqlı əməkdaşlıq uğurlu nəticələr verir”. Türkiyəli professor çıxışında texnoparklar hesabına universitetlərin maliyyə dayaqlarının möhkəmlənməsi perspektivlərinə də toxunub, texnoparkların yaradılması üçün ilkin görülən işlərlə bağlı təcrübəsini azərbaycanlı həmkarları ilə bölüşüb.

Mehmet Karacanın çıxışından sonra geniş müzakirələr başlayıb, “masa”da iştirak edən universitet təmsilçiləri mövzu ətrafında fikir mübadiləsi aparıblar. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov Türkiyə universitetlərində olduğu kimi, Azərbaycan universitetlərində texnopark ənənəsinin yoxluğundan, lakin bu məsələnin bütün ölkə universitetlərinin maraq dairəsində olmasından söz açıb. Rektor texnoparkların yaradılmasına dövlət tərəfindən dəstək göstərilməsi ilə maraqlanıb.

Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov Türkiyənin tanınmış universitetlərinin texnoparklarında dəfələrlə olduğunu bildirib, gördükləri ilə Azərbaycan reallığında fərqlərin çox olduğunu, çətinliklərin mövcudluğunu dilə gətirib: “İTU-nun texnoparkı doğrudan da möhtəşəmdir, burada istehsalat nümayəndələri, tələbələr, gənc mütəxəssislər iş aparır. Qurulan sistem olduqca mükəmməldir. Universitetlər olaraq bizim iqtisadi və maliyyə cəhətdən problemlərimiz var, bu ideyanı universitetlərdə tətbiq etmək üçün istehsalatla əlaqələri daha səmərəli qurmaq vacibdir. Hazırda isə bu mümkün deyil. Çünki istehsalat müəssisələri tərəfindən buna maraq olduqca azdır”.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı Azərbaycan universitetlərində startap hərəkatının geniş vüsət aldığını, gənclərin bu sahəyə marağının artdığını, bu layihələrin gələcəkdə biznesə çevrilməsi yolunda yaranan çətinliklərdən bəhs edib. O, rəhbərlik etdiyi ali təhsil ocağının nümunəsində tələbələrinin hazırladığı startap layihələrinin gerçəkləşməməsinin səbəblərinə toxunub.



Müzakirələr zamanı İTU-nun rektoru texnopark ənənəsinin öyrənilməsində Azərbaycan universitetlərinə dəstək götərməyə hazır olduğunu bildirib, universitet rəhbərlərini və təmsilçilərini İTU Texnoparkının fəaliyyətini izləmək və təcrübəsini öyrənmək üçün Türkiyəyə dəvət edib.

Qarşılıqlı müzakirələr şəraitində keçən “dəyirmi masa”nın sonunda AzMİU-nun rektoru Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında göstərdiyi dəstəyə görə Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyinin təhsil məsələləri üzrə birinci katibi Nəcibə Nəsibovaya təşəkkürünü bildirib və ona AzMİU-nun Fəxri diplomunu təqdim edib.

N.Nəsibova da öz növbəsində bu günkü görüş üçün AzMİU-nun rektoru Gülçöhrə Məmmədovaya minnətdarlığını ifadə edib, universitet nəzdində texnopark təcrübəsinin yerli universitetlərin nümayəndələri ilə bölüşdüyünə görə İTU-nun rektoru M.Karacaya təşəkkürünü bildirib.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**

# Bakıda “Falcons Summit” adlı qlobal tədbir keçirilir






**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında İnnovasiyalar Agentliyi tərəfindən aprelin 24-də Bakıda “Falcons Summit” adlı qlobal tədbir təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, “Falcons Summit”in məqsədi müxtəlif sahələrdə fəaliyyət göstərən innovativ startap layihələrinin investorlara təqdim edilməsi, maliyyələşdirmə imkanlarının müzakirəsi və Azərbaycanın mövcud sərmayə imkanlarının nümayişindən ibarətdir. Tədbir kapitalın artırılması və böyük investorlar, biznes liderləri, beynəlxalq təşkilatlar və dövlət qurumlarının nümayəndələri ilə işgüzar əlaqələr yaratmaq arzusunda olan startap şirkətləri üçün yeni imkanlar yaratmağa hədəflənib.

Sammitin açılış mərasimində nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, eləcə də “BP Azerbaijan” şirkətinin rəhbər şəxsləri çıxış edib.

Sonra İnnovasiyalar Agentliyi tərəfindən hazırlanan Azərbaycanın investisiya potensialını, ölkəmizə investisiya yatırımının perspektivlərini əhatə edən “İnnovaNation” adlı videoçarx nümayiş olunub.

Sammit Körfəz ölkələrindən (Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Oman), eləcə də Yaponiya, İtaliya, Fransa, İsrail, İsveçrə, Böyük Britaniya, Türkiyə, Belarus, ABŞ, Qazaxıstan, Koreya Respublikası, Braziliya, Almaniya, Rusiya, Çexiya, Hindistan və Ukraynadan olan investor, startapçı, sahibkar, şirkət və təşkilat nümayəndələrini bir araya toplayıb. Tədbirdə həmin ölkələrdən nümayəndə heyəti ilə yanaşı, dövlət və hökumət strukturlarından rəhbər şəxslər, diplomatik korpusların təmsilçiləri, bank-maliyyə seqmentinin nümayəndələri və özəl şirkət təsisçiləri iştirak edir. Ümumilikdə tədbirə 500-dən çox layihə və şirkətlərin nümayəndələri qatılıb.

Aprelin 26-dək davam edəcək “Falcons Summit” çərçivəsində potensial investor, vençur fond və startap şirkətləri arasında “B2B” formatında görüşlərin təşkili də nəzərdə tutulur. Bu görüşlərdə 40-dək müxtəlif layihələrin təmsilçiləri öz məhsul və xidmətlərini potensial investorlara təqdim etmək şansı əldə edib.

Tədbir çərçivəsində xarici investorlar üçün sənaye turları da təşkil ediləcək.

Sammitin bu ildən başlayaraq ənənəvi olaraq növbəti illərdə də Formula 1 Azərbaycan Qran-Prisi ərəfəsində keçirilməsi planlaşdırılır.

**AZƏRTAC**

# İmadəddin Nəsiminin 650-illik yubileyinə həsr olunmuş tədbir

“Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı”na əsasən Bakı Mühəndislik Universitetində baş tutan yubiley tədbirində universitetin tələbə-müəllim heyəti ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik M. Nağısoylu və institutun əməkdaşları iştirak edib.

İlk öncə tədbir iştirakçıları universitetin foyesində İmadəddin Nəsiminin bədii irsini, yaradıcılığını əks etdirən kitab və fotolardan ibarət sərgini ziyarət ediblər. Daha sonra tədbirdə şairin həyat və yaradıcılığından bəhs edən videoçarx nümayiş olunub.

BMU-nun rektoru professor Havar Məmmədov çıxış edərək tədbir iştirakçılarını salamlayıb və Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650- illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə respublikamızın hər yerində yüksək səviyyəli tədbirlər keçirildiyini diqqətə çatdırıb. Rektor



gənclərin xalqımızın tarixi şəxsiyyətlərini yaxından tanıması baxımından ali təhsil müəssisələrində belə tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, sovet dövründə Nəsiminin 600-illik yubileyinin keçirilməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Bu gün ölkə başçısı cənab İlham Əliyev əsası ulu öndər tərəfindən qoyulan xalqımızın dilinə, mədəniyyətinə və dahi şəxsiyyətlərinə olan diqqət və qayğını uğurla davam etdirir.

Daha sonra çıxış edən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru akademik M.Nağısoylu hər bir xalqın dünyada tarixi şəxsiyyətləri ilə tanındığını, xalqımızı dünyada tanıdanlardan birinin də Nəsimi olduğunu qeyd edib.

Tədbirin bədii hissəsində universitet tələbələrinin ifasında Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş olunub.

**M.MİRZƏ,**
**“Respublika”.**

*25 Aprel Sahibkarlar Günüdür*

# Azərbaycanın möhtəşəm uğurlarına sahibkarlar da özünəməxsus töhfələr verirlər

**Ölkədə iqtisadiyyatın bütün sahələri üzrə müasir sahibkarlığa geniş imkan yaradılmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırılmışdır.**



"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu vurğulayırdı. Ulu öndərin müəyyən etdiyi və onun rəhbərliyi ilə uğurla həyata keçirilən sahibkarlığın inkişafı strategiyası özəl bölmənin inkişafına yönəlmiş tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institutionallaşdırılması ilə xarakterizə edilir. Qəbul olunmuş Dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi.

Azərbaycanda güclü sahibkarlar sinfinin yaranmasına da yeni təkan vermişdir. Möhtərəm Prezidentin dəfələrlə bəyan etdiyi kimi, bazar iqtisadiyyatı yolunu seçmiş hər bir ölkənin sabit və davamlı inkişafında sahibkarlar sinfinin, özəl sektorun rolu misilsizdir. Dəfələrlə sahibkarlarla görüşlərində dövlət başçısı onları narahat edən məsələləri diqqətlə dinləmiş, iş adamlarına gələcəkdə də lazımi köməyi göstərəcəyini bəyan etmişdir.

"Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası" İctimai Birliyinin məqsədi ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərində qadın sahibkarlığını inkişaf etdirilməsi, bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi və yayılması, qadınlar arasında sahibkarlıq ideyasının geniş şəkildə təşviq olunmaqla qadın sahibkarlığı dəstək verməkdir. Eyni zamanda, sahibkar qadınların maraqlarının qorunması, səmərəli əməkdaşlıq və kollektiv tərəfdaşlıq imkanlarının təmin olunmasıdır. Bunun üçün Assosiasiya yerli və beynəlxalq tədbirlər, forum və konfranslar, təlim və seminarlar təşkil edir, elmi araşdırma və sosioloji sorğular, qiymətləndirmə və monitorinqlər aparır, məlumatlandırma aksiyaları və maarifləndirmə kampaniyaları keçirir.

Fəaliyyəti dövründə Assosiasiya sosialyönümlü layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Belə ki, "Əl əməyi, göz nuru", "İdeyadan biznesə doğru" layihəsi çərçivəsində tədbir keçirilmişdir ki, bu da ənənəvi əl sənətinin, həmçinin, evdə qadın məşğulluğunun inkişaf etdirilməsi üçün imkanlar artırılmasına, biznes inkubatorlarına qadın sahibkarların cəlb edilməsi üçün şərait yaradılmasına səbəb olmuşdur. Həm də Assosiasiyanın xətti ilə təşkil edilən məşğulluq proqramlarından bəhrələnən qadınların "ABAD-a qoşul!" proqramına qoşulması üçün şərait yaradılmışdır.

Regionlarda keçirilən təbliğat və təşviqat xarakterli tədbirlər çərçivəsində Cocuq Mərcanlıda, Daşkəsən, Tovuz, Balakən rayonlarında və İsveçrə Əməkdaşlıq Təşkilatının maliyyə dəstəyi Xaçmazda tədbir keçirilmişdir. Əsas məqsəd qadınların biznes bacarıqlarının artırılması, təcrübə ilə biliyin birgə platforma üzərində qurulması və iqtisadi maliyyə resursların çıxışlarının artırılması üzrə təlimlər olmuşdur. Layihələrinin icrası nəticəsində yüzlərlə qadının özünəməşğulluq potensialları inkişaf etdirilmiş, onların biznes bacarıqları artırılmışdır.

Assosiasiya sosial tərəfdaşlığa xüsusi əhəmiyyət verməklə yerli təşkilatlardan Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Kənd Qadınları Assosiasiyası ilə, eyni zamanda, xarici təşkilatlardan Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti və İsveçrənin Əməkdaşlıq Təşkilatı ilə tədbirlər keçirməyə müvəffəq olmuşdur.

Daxili bazarın formalaşdırılması, xarici tərəfdaşlarla iqtisadi münasibətlərdə qarşılıqlı əlaqələrin qurulması məqsədilə Assosiasiya Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və AzPromo ilə "Made in Azerbaijan" brendinin inkişafında yaxından iştirak etmək üçün çoxsaylı tədbirlər keçirmişdir.

Belə ki, qadın sahibkarlığı sahəsində yeni birliklərin yaradılması üçün investisiya imkanlarını genişləndirmək, maliyyə resursların əlçatan etmək və məhsul satışında geniş kütləni əhatə edəcək şəbəkənin qurulmasını sürətləndirmək üçün ötən il "Üfüqdə yeni fürsətlər: Qadın Sahibkarlara yaşıl işıq!" adlı konfrans keçirmişdir.

Beynəlxalq əməkdaşlığın daima inkişaf etdirilməsi məqsədi ilə Assosiasiya Rusiya Federasiyasının Həştərxan vilayətinin "İşgüzar Qadınlar" Assosiasiyası, "Biznes Qadınları" Ümumrusiya İctimai Təşkilatı, həmçinin Gürcüstanın, Latviyanın və digər dövlətlərin ərazisində fəaliyyət göstərən təşkilatlarla əməkdaşlıq memorandumu imzalamışdır.

Assosiasiya cari ildə beynəlxalq sahədə əməkdaşlıq əlaqələrini genişləndirərək qadın sahibkarlığının inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərən beynəlxalq qurumlarla Ümumdünya Qadın-Sahibkarlar Assosiasiyası, Qadın Sahibkarlıq Platforması, Beynəlxalq Qadın Biznes Təşəbbüsləri, ,Qadın Sahibkarların və Peşəkarların Beynəlxalq Assosiasiyası kimi nüfuzlu beynəlxalq qurumlara üzv olmaq üçün xarici tərəfdaşlarla danışıqlar aparır.

Yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması üçün bütün qüvvələrini səfərbər edərək Azərbaycanın möhtəşəm uğurlarına sahibkarlar ordusu da özünəməxsus töhfələr verməyə çalışır və bu, dövlət başçısının bizə etimadının bir təcəssümü olaraq mühüm vəzifə kimi qəbul edilir.

Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur. Əminliklə demək olar ki, Azərbaycan xalqını uğurlu gələcəyə aparan bu siyasət növbəti illərdə də davam etdiriləcək, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirəcək, qabaqcıl dövlətlər arasında layiqli yerini tutacaqdır.

**Səkinə BABAYEVA,**
**"Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası"nın sədri.**

# Ölkə rəhbərinin dəstəyi sahibkarlar sinfinin davamlı inkişafına bir zəmindir

**Ölkə rəhbərliyinin həm siyasi, həm də maliyyə dəstəyi nəticəsində Azərbaycanda sahibkarlığın inkişafı geniş vüsət almış, respublikamızda güclü sahibkarlar sinfi formalaşmışdır. 2003-cü ildən Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ötən 15 ildə milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək, ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etmişdir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlar hüquqi-siyasi istiqamətdə həyata keçirilməklə həm də sahibkarlığın inkişafına güclü təkan verir.**

Martın 26-da Bakının Nizami rayonu ərazisində "Diqlas" ticarət mərkəzində baş vermiş yanğın nəticəsində burada ticarətlə məşğul olan sahibkarlara xeyli miqdarda ziyan dəymişdir. Hər zaman olduğu kimi, bu dəfə də Prezident İlham Əliyev vətəndaşlarına arxa durmuş, sahibkarları sahibsiz qoymamışdı. Dövlət başçısı təcili müşavirə keçirmiş, müvafiq tapşırıqlar vermişdir.

Müşavirədə Prezident İlham Əliyev qeyd etdi ki, "Sahibkarlara gəldikdə bir daha demək istəyirəm ki, dövlət onların yanında olacaq. Maliyyə dəstəyinin göstərilməsi operativ qaydada təşkil edilməlidir və müvafiq göstəriş verilib. Eyni zamanda onlara güzəştli şərtlərlə kreditlər verilməlidir, dəymiş ziyan dəqiq hesablanmalıdır. Onların bu gün fəaliyyətdə olan digər ticarət mərkəzlərində yerləşdirilməsi ilə bağlı tədbirlər görülməlidir ki, işsiz qalmasınlar".

Son illərdə özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq edilir. Bu gün hər bir sahibkar dərk edir ki, qüdrətli və müasir Azərbaycanın qurulması üçün Prezident İlham Əliyevin liderliyi altında bizi bir sıra mühüm vəzifələr gözləyir.

Biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün Azərbaycan ən çox islahatlar aparan ölkələrdən biridir. Post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumət sahibkarlar üçün böyük imkanlar yaradıb. Prezident İlham Əliyev keçirdiyi müşavirələrdə öz çıxışlarında yerli sahibkarlara müraciət edərək bildirmişdir: "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin. Maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz". Sahibkarlığın inkişafına münasibətdə bu cür ardıcıl mövqe ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətli olmuşdur.

Sahibkarlığın inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlər nəticəsində Dünya Bankının "Doing Business-2019" hesabatında biznes mühitinin əlverişliliyinə görə ölkəmiz əvvəlki illərlə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerə yüksəlib. Azərbaycanın dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilməsi ölkədə aparılan iqtisadi islahatların bariz nümunəsidir.

Ölkəmizdə ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində nailiyyətlər əldə edilmişdir.

Son dövrlərdə ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilmişdir. Sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilməkdədir. Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora üstünlük verilir. Azərbaycan Respublikasında 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına səbəb olur, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə nail olunmasına əhəmiyyətli töhfəsini verir.

Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə 2018-ci ildə xarici ölkələrdə beş "Azərbaycan Ticarət Evi" açılıb. Bu ilin yanvarın 15-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində açılan "Azərbaycan Ticarət Evi" ölkəmizin xaricdə yaradılmış sayca 7-ci ticarət evidir. Ticarət evlərində daimi fəaliyyət göstərən sərgilərdə Azərbaycan şirkətlərinin istehsal etdiyi məhsullar nümayiş olunur.

Son illər ərzində Dövlət Proqramının icrasının təmin edildiyini vurğulayan dövlət başçısı Azərbaycan iqtisadiyyatının dünya miqyasında rekord templərlə inkişaf etdiyini söylədi. 15 ildə ümumi daxili məhsulun 3,2 dəfə artması dünya miqyasında rekord göstəricidir. Bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, Azərbaycan çox uğurla inkişaf edir və artan iqtisadi imkanlar dövlətin sosial məsələlərə də böyük diqqət yetirməsinə real imkanlar yaradır.



Yeni inkişaf konsepsiyasına uyğun həyata keçirilən siyasət ölkədə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirdi. 2019-cu ilin yanvarın 10-da Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı olmuşdur. Ölkə rəhbəri iclasda bildirdi ki, "Biz sahibkarlığın inkişafı üçün də əlavə addımlar atmalı, kompleks tədbirlər görməliyik. Bu kompleks tədbirlər apardığımız siyasətin tərkib hissəsidir".

Yaradılan əlverişli şəraitdən səmərəli şəkildə və düzgün istifadə edərək ölkəmizin iqtisadi qüdrətinin artması məqsədilə bütün qüvvəmizlə çalışacağıq.

**Anar NOVRUZOV,**
**"Rolal Isteyt" MMC-nin Baş direktoru.**

# Ölkə iqtisadiyyatının inkişafında özəl sektor mühüm rol oynayır

**Dünyanı bürüyən qlobal böhranın hələ də müşahidə olunmasına, neftin satışından gələn gəlirlərin azalmasına baxmayaraq, ölkəmiz ildən-ilə iqtisadi artıma nail olub, qeyri-neft sektorunun faiz dərəcəsi çoxalıb, idxalımız azalıb, ixracımız isə əhəmiyyətli dərəcədə artıb.**

Bütün bunlar Azərbaycan Prezdenti İlham Əliyevin rəhbərliyi altında ölkədə aparılan iqtisadi islahatların məntiqi nəticəsidir. Son vaxtlar Milli Məclisdə sahibkarlığın inkişafına xidmət edən bir çox qanunlar qəbul olunub, mövcud qanunlara dəyişikliklər edilib. Bundan başqa, yoxlamaların sayı, lisenziya alınması üçün tələb olunan sənədlər azalıb, bürokratik əngəllər aradan qaldırılıb, gömrük sistemi yaxşılaşdırılıb, vergi sistemində islahatlar aparılıb. Bütün bunlar onu göstərir ki, Azərbaycan dövləti iqtisadi inkişafın sahibkarlıq amilinə çox böyük önəm verir. Belə ki, iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin və biznes mühütinin formalaşmasına geniş imkanlar yaratmış, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit yaratmışdır. Maraqlı cəhətlərdən biri də budur ki, Azərbaycanda bir çox qeyri-neft məhsulları üzrə assosiasiyalar yaradılıb. Assosiasiyalar isə bu və ya digər məsul istehsalçılarını bir araya gətirir onların səmərəli fəaliyyətinin təmin edilməsi üçün təkliflər hazırlayırlar. Eyni zamanda, həmin assosiasiyalar sahibkarlığın daha da inkişafı, sahibkarlar üçün dövlət dəstəyinin artırılması ilə əlaqədar təkliflər də verirlər. Məsələn, ölkəmiz kifayət qədər zəngin, təbii resuslara malikdir. Münbit torpaqlarımız, əlverişli iqlim şəraitimiz var. Bu da Azərbaycanda keyfiyyətli məhsulların yetişdirilməsi və dünya bazarlarına çıxarılması üçün imkanlar yaradır. Qeyd edim ki, ölkəmizdə ən böyük imkanlardan biri kənd təsərrüfatının ən mühüm istiqamətlərindən olan pampıqçılıq, baramaçılıq, ipəkçiliklə əlaqədardır. Bütün bunlar barədə dövlət başçısının konkret tapşırıqları var. Yəni ölkə Prezidentinin irəli sürdüyü məsələlər regionlarda bolluğun artmasına hesablanıb. Bu gün ən başlıca şərt iqtisadi fəallığın artmasıdır. Fermerlər və sahibkarlar torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar. Onlara subsidiyalar, güzəşli kreditlər verilir. Bütün bunlar ona görədir ki, respublikamızın bölgələrində aqrar sektorda fəallıq yüksəldilsin.

Digər tərəfdən, Prezident İlham Əliyevin iqtisadi siyasətinin ana xəttini iri şəhərlərdə və bölgələrdə sənaye parklarının və məhəllələrinin yaradılması ilə bağlı imzaladığı sərəmcanlardır. Məhz həyata keçirilən iqtisadi islahatların bəhrəsidir ki, dövlət büdcəsinin formalaşmasında qeyri-neft sektorundan gələn gəlirlərin xüsusi çəkisi artmışdır.

Ümumiyyətlə, son illərin statistikası göstərir ki, iqtisadiyyatımızın əsas göstəriciləri qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının inkişafıdır. Bütün bu istiqamətlər üzrə yaxşı nəticələr var. Nazirlər Kabinetinin yanvarın 11-də 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində Azərbaycan Prezidenti cənab İlham Əliyev bu məsələlərlə bağlı demişdir: "Bizim bütün iqtisadi göstəricilərimiz çox müsbətdir. Mən bəzi göstəriciləri ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm. Ümumi daxili məhsul, yəni, iqtisadi artım keçən il Azərbaycanda 1,4 faiz olmuşdur. Hesab edirəm ki, bu, yaxşı göstəricidir. Əlbəttə ki, bizim arzularımızı tam əks etdirmir. Ancaq, eyni zamanda, dünyada gedən proseslərə baxdıqda hesab edirəm ki, yaxşı göstəricidir. Ondan daha yaxşı göstərici qeyri-neft sektorunun inkişafıdır. Burada da inkişaf 1,8 faizdir. Sənaye istehsalı 1,5 faiz, qeyri-neft sektorunda isə sənaye istehsalı 9,1 faiz artıb. Bu onu göstərir ki, sənayeləşmə siyasətimiz öz gözəl nəticələrini verir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4.6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir. Yəni, bu onu göstərir ki, Azərbaycan sərmayə qoyuluşu üçün çox cəlbedici ölkədir.

Dövlət başçısının sədrliyi ilə keçirilən daha bir mötəbər tədbiri də xatırlatmaq istərdim. Belə ki, yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda ölkə rəhbəri üçüncü Dövlət Proqramının icrası çərçivəsində görülmüş işləri yüksək qiymətləndirmiş, qarşıdakı illərdə iqtisadiyyatın, o cümlədən sahibkarlığın inkişafı istiqamətində mühüm vəzifələr müəyyənləşdirmişdir. Belə ki, Azərbaycan Prezdentinin rəhbərliyi ilə ölkədəki ictimai-siyasi sabitlik, həyata keçirilən davamlı islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial dünyada gedən çətin geosiyasi proseslər fonunda ölkəmizin iqtisadiyyatının dayanıqlı inkişafını təmin edib, həm Bakıətrafı qəsəbələrin, həm də regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayıb. Son dövrlərdə ölkəmizdə müasir iqtisadi şəraitin tələblərinə uyğun olaraq çoxşaxəli və ardıcıl islahatlar həyata keçirilir, qeyri-neft ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülür, biznes-invastisiya mühüti davamlı olaraq yaxşılaşdırılır, qeyri-neft sektorunun inkişafı təmin edilir, sahibkarlığa dövlət dəstəyi daha da gücləndirilir.

Kənd təsərrüfatının subsidiyallaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması, müddətinin 2021-ci il yanvarın 1-dək azadılması yerli istehsalın stimullaşdırılması məqsədilə dövlət satınalmalarında yerli məhsulların dəyərinə 20 faiz güzəştin tətbiqi ixrac təşviqinin verilməsi və digər dövlət dəstəyi mexanizmləri ölkəmizdə sahibkarlığın inkişafında mühüm rol oynayır. Pambıqçılıq, tütünçülük, baramaçılıq, sitrus meyvəçiliyi, çayçılıq, çəltikçilik, şərabçılıq və xalçaçılıq sahələrinin inkişafı ilə bağlı qəbul edilən dövlət proqramları və bu sahədə görülən işlər aqrar sektorun və sənayenin inkişafında, ixrac potensialının artmasında və regionlarda məşğulluq səviyyəsinin yüksəlməsində xüsusi əhəmiyyət kəsb edir. Ölkədə sahibkarlığın dəstəklənməsi, özəl investisiyaların təşviqi, vergi güzəştlərinin optimallaşdırılması və iqtisadi səmərəsinin yüksəldilməsi, startapların, makro, kiçik və orta sahibkarlıq subyektlərinin yaradılması sahibkarlığın inkişafı üçün geniş imkanlar açıb.

Qeyd edək ki, dövlət proqramlarının icrası dövründə Azərbaycan arıçılar, şərab, nar, meyvə-tərəvəz, fındıq, xurma, zeytun, tütün, tekstil, çay, süd və süd məhsulları istehsalçıları və ixracatçıları, qablaşdırma sənayesi, mebel, tikinti materialları və qadın sahibkarlığının inkişafı assosiasiyaları fəaliyyətə başlayıb və artıq bu sahələrin inkişafına öz müsbət töhfəsini verir. Məsələn, 2014-2018-ci illərdə 16 mindən çox sahibkarın ümumi dəyəri 2,6 milyard manat olan lahiyəsinə 1 milyard manatdan çox güzəştli kredit verilib, bunun 79 faizi aqrar sektorun, 21 faizi isə müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib. Verilmiş güzəştli kreditlərin 30 faizi Bakıətrafı qəsəbələrin, 70 faizi isə regionların payına düşür. 2018-ci ildə geri qaytarılan vəsaitlər hesabına sahibkarlara 160,2 milyon manat güzəştli kredit verilib.



Səmərəli dövlət dəstəyi tədbirləri, o cümlədən vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi, layihələrin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parklarının və məhəllələrinin, aqroparkların, biznes-inkubatorların yaradılması, maarifləndirici tədbirlər, biznes-forum və sərgilərin təşkili və sairlərin nəticəsində ümumi daxili məhsulda özəl bölmənin payı 80 faizi, məşğulluqda isə 74 faizi ötmüş, ölkə iqtisadiyyatı şaxələndirilmiş, özünütəminat səviyyəsi yüksəlmişdir. Bu gün bir çox qeyri-neft məhsullarımız "Made in Azeribaijan" brendi ilə dünya bazarlarına çıxarılır.

Məhz bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Sahibkarlar Günü"nün təsis edilməsi haqqında 21 aprel 2016-cı il tarixli sərəncamı imzalamışdır. Həmin sərəncama əsasən aprelin 25-i ölkəmizdə "Sahibkarlar Günü" kimi qeyd edilir. Onu da deyim ki, bu tarix təsadüfi seçilməmişdir. Belə ki, ümummilli liderimiz Heydər Əliyev müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dövrdə sahibkarlığın inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamlar, qəbul etdiyi taleyüklü, qərarlar özəl sektorun, biznes mühitinin formalaşmasında, sahibkarlıq təbəqəsinin yaranmasında mühüm rol oynamışdır. Məhz böyük öndərin 2002-ci il aprelin 25-də ölkə sahibkarları ilə keçirdiyi görüş sahibkarlığın inkişafında yeni bir mərhələnin başlanğıcı olmuşdur. Xatırladaq ki, bundan bir az sonra mayın 14-də isə ulu öndər xarici iş adamları ilə görüşmüşdür. Bu tədbir də ölkəmizə xarici investisiya yatırımının həcminin xeyli artmasına təkan vermişdir. Azərbaycan xarici investorlar üçün cəlbedici bir ölkəyə çevrilmişdir. Beləliklə də, "Sahibkarlar Günü" nün aprelin 25-də təsis olunması ümummilli liderin başladığı inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin daha bir əyani təzahürüdür. Bunun nəticəsidir ki, bu gün ölkəmiz regionun siyasi, iqtisadi və mədəni mərkəzinə, sahibkarlar isə iqtisadi inkişafımızın aparıcı qüvvəsinə çevrilmişdir. "Sahibkarlar Günü" münasibətilə bütün həmkarlarımı təbrik edir, fəaliyyətlərində yeni-yeni uğurlar arzulayıram.

**Yusif NƏSİBOV,**
**"Nəzər" kənd təsərrüfatı məhsullarının istehsalı və emalı müəssisəsinin direktoru, sahibkar.**

# "MÜASİR AZƏRBAYCAN NƏSRİ" ANTOLOGİYASI AMERİKADA NƏŞR OLUNUB

Bu günlərdə Amerikanın nüfuzlu Trafford nəşriyyatında "Müasir Azərbaycan nəsri" (Modern Azerbaijani Prose. Bloomington, Trafford Publishing, 2019, 634 səhifə) antologiyası nəşr olunub. Yüksək poliqrafik keyfiyyətlə, orijinal tərtibatla nəşr edilən kitabı Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı və Norveçdə yaşayan həmyerlimiz Dr. İrəc İsmayıl nəşrə hazırlamışlar. Rajeev Madanın redaktəsi ilə nəşr olunan antologiya, 2012-ci ildə Amerikada yayımlanan eyniadlı kitabın əlavə və düzəlişlərlə ikinci nəşridir.




Müxtəlif ədəbi nəsli təmsil edən yazıçılardan İsmayıl Şıxlı, Əzizə Cəfərzadə, İsa Muğanna, Yusif Səmədoğlu, Sabir Əhmədli, Sara Oğuz, Sabir Azəri, İsi Məlikzadə, Anar, Elçin, Mövlud Süleymanlı, Seyran Səxavət, Məmməd Oruc, Azər Abdulla, Rafiq Tağı, Afaq Məsud, Saday Budaqlı, Orxan Fikrətoğlu, Kamran Nəzirli, Elçin Hüseynbəyli, İlqar Fəhmi, Şərif Ağayar, Fəxri Uğurlu və başqalarının əsərlərininin yer aldığı antologiya Azərbaycan nəsrinin son illərdə yaranmış bir sıra dəyərli örnəklərini əhatə etməkdədir. Antologiyada, eyni zamanda, Azərbaycanın Güneyində yaranan bədii nəsr örnəklərinə də yer verilmiş, Qulamhüseyn Səidi, Ruqiyyə Kəbiri, Güntay Gəncalp kimi müəlliflərin hekayələri kitaba daxil edilmişdir.

Tərtibçilər antologiyaya yazdıqları ön sözdə çağdaş Azərbaycan nəsri ilə bağlı mülahizələrini aşağıdakı şəkildə ümumiləşdirmişlər: "Təəssüflər olsun ki, qədim və zəngin ənənələrə malik olan Azərbaycan ədəbiyyatı dünyada lazımınca tanıdılmamışdır. Bunun obyektiv və subyektiv səbəbləri mövcuddur. Hər şeydən öncə, uzun illər sovet siyasi rejimi şəraitində yaşaması Azərbaycan ədəbiyyatı örnəklərinin dünya ictimaiyyətinə çatdırılmasına ciddi əngəllər törətmişdir. O illərdə ədəbiyyatların dünyada tanıdılması dövlət siyasətinin tərkib hissəsi olduğundan bu işin icra mexanizmi ciddi qüsurlarla müşayiət olunmuşdur".

Dünya oxucularına təqdim olunan bu antologiya təxminən son yarıməsrlik dövrün bədii nəsr örnəklərini özündə birləşdirir. Bu dövr sovet siyasi rejiminin çöküşü və Azərbaycanın istiqlaliyyətə qovuşduğu mərhələnin ədəbiyyatını əhatə etdiyindən yaranan bədii örnəklərdə özünəməxsus bədii çalarların olduğu diqqət çəkir.

Antologiyaya daxil edilən bədii örnəklər seçilərkən daha çox yazıların dünya oxucularının maraq və zövqünə uyğun olması, həmçinin əsərlərin mövzu, məzmun baxımından əlvanlığı nəzərə alınmışdır. Belə ki, burada epik-analitik, lirik-psixoloji, şərti-metaforik üslublu yazılara yer verilmişdir. Əsərlərin seçimində çağdaş Azərbaycan bədii nəsrinin gerçək mənzərəsinin əks olunmasına səy edilmişdir.

Kitabı www.amazon.com, www.trafford.com, www.books.google.com, www.bookland.com, www.ebay.com, www.scribd.com, www.waterstones.com, www.barnesandnoble.com və digər saytlardan sifariş yolu ilə əldə etmək olar.

**Arzu ƏLİYEVA.**

# Federasiyanın yığma komandası yarışlarda yüksək bacarıq nümayiş etdiriblər

**Dövlət Dəniz Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən bildirirlər ki, Yelkənli İdman Federasiyasının yığma komandası aprelin 18-22-si tarixlərində Sloveniyada "Optimist" və "Laser" sinifləri üzrə keçirilən "32-th Izola Spring Cup" və "Easter Regata" yarışlarında iştirak edib.**

Öz bacarıqları ilə seçilən yelkənçilərimiz Murad Hacı-Zadə və Ayla Babayeva 14 ölkədən iştirak edən 450 idmançı ilə "Qızıl Qrup"da yarışmaq imkanı əldə ediblər. Gənc idmançılarımızın peşəkar yelkənçilərlə bir qrupda yer alması beynəlxalq səviyyəli məşqçilərin xüsusi diqqət və rəğbətilə qarşılanıb.

"Laser" sinfi üzrə yarışan yelkənçilərimiz Murad Allahverdi və İsmayıl Kərimov yüksək bacarıq nümayiş etdiriblər.



Ölkəmizi yarışlarda "Optimist" sinfi üzrə Ayla Babayeva, Fidan Ağazadə, Kristina Kərimova, Murad Hacı-zadə, Murad İsmayılov, Səxavət Əzimov, "Laser" sinfi üzrə Murad Allahverdi və İsmayıl Kərimov, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız, "Laser" sinfi üzrə məşqçi Tuğçə Subaşı, köməkçi məşqçi Anton Vilyayev təmsil ediblər.

Xatırladaq ki, 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyası, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinfi üzrə 7-14 yaş uşaqlar, "Laser" sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb edərək ölkəmizi beynəlxalq yarışlarda uğurla təmsil edirlər.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

## Sosial həyat

### Əlilliyə görə pensiyaların da elektron qaydada təyinatına başlanıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli Fərmanına əsasən, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi işləri davam etdirilir. Belə ki, cari ilin əvvəlindən tətbiqinə başlanan avtomatlaşdırılmış pensiya təyinatı sisteminin texniki imkanları artırılmaqla, əlilliyə görə pensiya təyinatlarının da elektron sistem üzərindən həyata keçirilməsinə başlanıb. Yaşa görə pensiya təyinatı kimi, əlilliyə görə pensiya təyinatı da artıq heç bir yerə müraciət olunmadan və sənəd təqdim edilmədən elektron qaydada təyin olunur. Beləliklə, əliliyə görə pensiya təyinatında da vətəndaş-məmur təması, süründürməçilik, neqativ halların başvermə ehtimalı tam aradan qalxıb, bu istiqamətdə də şəffaf və çevik pensiya təyinatı mexanizmi qurulub.

### İşəgötürənlər üçün maarifləndirmə tədbiri keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti İmişli rayonunda İmişli, Sabirabad, Saatlı, Beyləqan, Füzuli rayonlarının işəgötürənləri üçün maarifləndirmə tədbiri keçirib. Tədbirdə həmkarlar təşkilatlarının, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli bölmələrinin məsul şəxsləri, Vergilər Nazirliyinin nümayəndəsi də iştirak ediblər. Əmək münasibətlərinin rəsmiləşdirilməsi proseduru, əmək müqaviləsinin məzmunu və quruluşu, forması, bu müqavilənin bağlanması və ona dəyişikliklərin edilməsi qaydası, müddətli əmək müqaviləsi bağlanan hallar və s. barədə işəgötürənlərə ətraflı məlumat verilib. Əmək müqaviləsinin şərtlərinin dəyişdirilməsi və xitam verilməsinin əsasları və qaydaları da diqqətə çatdırılıb.

**"Respublika".**


## BİLDİRİŞ

"ASK" ASC istifadəçi antivirus proqram təminatı və ofis lisenziyalarının satın alınması üçün kotirovka sorğusu keçirir.

Maraqlanan təşkilatlar gunel.ismayilova@ask.gov.az elektron ünvan və ya +994 (77) 277-11-06, +994 (12) 505-95-14 (daxili-131) telefon nömrələri ilə əlaqə saxlaya bilərlər.

Xidmətlərin qiymət kotirovkaları bağlı zərfdə, imzalanıb və möhürlənərək 01 may 2019-cu il saat 11:00-dək təqdim olunmalıdır.

**Ünvan:** Bakı şəh., Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi 40C.

**"ASK" ASC-nin Tender Komissiyası.**

## Qusar Mərkəzi Rayon Xəstəxanası 2019-cu il üçün KOTİROVKA SORĞUSU KEÇİRİR

Ehtiyat hissələrin alınması, Mətbəə xərclərinin alınması, Dəftərxana və təsərrüfat xərclərinin alınması, İdarənin digər xərclərinin alıması, Yumşaq inventarların alınması üçün 10 may 2019-cu il, Digər maşın və avadanlıqların alınması, Cari və Əsaslı təmir işlərin aparılması üzrə 13 may 2019-cu il tarixlərində kotirovka sorğusu aparılacaqdır.

**Əlaqələndirici şəxs:** Məhsimov Eldar Meyvəddin oğlu

**Tel.:** 0233854849.

**Tender Komissiyası.**

## "EUROPEAN TOBACCO-BAKU" ASC-nin SƏHMDARLARININ NƏZƏRİNƏ

Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Köndələn 21 ünvanında yerləşən "European Tobacco-Baku" ASC-nin Nizamnaməsinin 6.1 və 6.3-cü maddələrinə uyğun olaraq səhmdarlarının növbəti ümumi yığıncağının aşağıdakı qeyd olunan gündəliyi ilə "Qafqaz Business Center"-də, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Heydər Əliyev prospekti 125 ünvanında 22 iyun 2019-cu il tarixində, saat 10:00-da keçiriləcəyi barədə sizə xəbərdarlıq edirik:

-Cəmiyyətin İdarəetmə orqanlarının 2018-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinə dair illik hesabatının təsdiqi;

- Cəmiyyətin 2018-ci il üzrə xalis mənfəətinin səhmdarlar arasında bölüşdürülməsi və dividendlərin ödənilməsi qaydasının təsdiqi.

**İdarə Heyəti.**

## "Bakı Metropoliteni" QSC müxtəlif növ metal məmulatlarının, santexnika mallarının, avtomobil, maşın və mexanizmlər üçün sürtkü yağlarının satınalınması üzrə AÇIQ TENDER ELAN EDİR

**Tender 3 (üç) lot üzrə keçirilir:**

**LOT-1. Müxtəlif növ metal məmulatlarının satınalınması satınalınması**

**LOT-2. Santexnika mallarının satınalınması**

**LOT-3. Avtomobil, maşın və mexanizmlər üçün sürtgü yağlarının satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dən, (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**İştirak haqqı 1 lot üzrə - 500 manat**
2 lot üzrə - 1000 manat
3 lot üzrə - 500 manat

**Hesabın adı: BAKI METROPOLİTENİ QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı:**
**AZ02NABZ01350100000000022944**
**SWİFT BİK: AZRTAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 iyun 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 13 iyun 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 iyun 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"BAKI METROPOLİTENİ" QSC TENDER KOMİSSİYASI.**


# Yeni əsər haqqında yeni təəssüratlar

Ədəbiyyatı, bədii təfəkkürü, şeiri, sənət əsərlərini duyan, ədəbi şəxsiyyətləri dəyərləndirən qeyri-peşə sahiblərinin fikirləri məndə hər zaman maraq oyadıb. Belə insanların ədəbiyyata, onun yaradıcılarına özəl yanaşmaları, əsərləri haqqında fərqli prizmalarından fikir söyləmələri həqiqətən də diqqətçəkəndir. Çünki ədəbiyyatşünasların, tədqiqatçıların və tənqidçilərin mülahizələri, bədii əsərlərə münasibəti - tənqidi, yaxud da təqdir-tərifi təbii qəbul edir, hətta onların fikirlərindən bəhrələnirik. Yəni, söz sahibi peşəkar olduğundan onların sözünə inam da böyükdür. Qeyri-peşəkarın sözügedən sahəylə bağlı qeydləri isə oxucuda həmişə inam doğurmur, daha doğrusu, onların fikirləri çox zaman ədəbi mühitdə elə bir təsirə malik olmur, hətta bəzən etinasız qarşılanır. Onda ki qeyri sənət sahiblərində ədəbiyyata bağlılıq, düşüncədə formalaşan sağlam mülahizə və fikirləri ifadə etmək, yazıya almaq istəyi, həssaslıqla, yaradıcı təxəyyüllə icra edilir, o zaman onların ədəbi düşüncələrinə böyük inam yaranır.

Bu fikirləri səsləndirərkən cəmiyyətdə özünün ictimai fəaliyyəti, ədəbi yaradıcılığı ilə seçilən, böyük hörmət və nüfuza malik, ixtisasca iqtisadçı olan Ramiz Göyüşovu xatırlayır və sözümü-söhbətimi də onun ziyalı obrazının bəzi detalları üzərində qurmaq niyyətindəyəm. Əslində bu, mənim Ramiz müəllim haqqında ikinci yazımdır və ilk abzasda dediyim fikirləri də bir başqa formada elə birinci yazımda da nəzərə çatdırmışdım. Yeri gəlmişkən, onun ədəbiyyata, sənətə bağlılığını səciyyələndirməyə cəhd etdiyim həmin fikirlərdən bir parçanı xatırlatmağı məqsədəmüvafiq hesab edirəm: "Biz ədəbiyyat haqqında mükəmməl fikirləri adətən elə ədəbiyyat adamlarının - ədəbiyyatşünasların, şairlərin, yazıçıların əsərlərindən, mətbuat və televiziya çıxışlarından eşitməyə alışmışıq. Əslində hər hansı bir sahənin uğurundan, qayğı və problemlərindən elə həmin sahənin öz mütəxəssisinin fikri daha önəmli və qəbuledilləndir. Lakin böyük həyat təcrübəsindən belə qənaətimiz də var ki, ixtisasca başqa sahənin adamları da ədəbiyyatı nəinki gözəl duyur, hətta özü də hansısa şairin, yaxud da yazıçının bir əsəri barədə ortaya elə dolğun, mükəmməl bir yazı qoyur ki, bəzən onun hansı peşənin sahibi olduğunu da unudursan...".

Zənnimcə, ilk dəfə Ramiz Göyüşov haqqında fikir söyləyən söz sahibi bu fikri müəyyən formada nəzərə çatdırır. Ramiz Göyüşovun haqqında bəhs edəcəyimiz "Bizdə şeir də var, sənət də vardır" kitabına filologiya elmləri doktoru, professor Rüstəm Kamal da "Poeziya inanc kimi" ön sözündə buna öz münasibətini bildirir. Professor yazır: "Həyatımda ilk dəfədir ki, qeyri-filoloqun məqalələr toplusuna ön söz yazıram. Ramiz Göyüşov ixtisasca iqtisadçıdır. Amma mənim üçün bu xoş istisnadır." Yəqin ki, bu "xoş istisna" Ramiz müəllimin ədəbi yaradıcılığına olan inamından yaranıb...

Ramiz Göyüşovun "Bizdə şeir də var, sənət də vardır" (2018) məqalələr toplusu ilə tanış olanda mən bir daha əmin oldum ki, o öz sahəsinin peşəkarı olmaqla yanaşı, həm də ədəbiyyat, sənət adamıdır. Onun "Sazla havalıyam, sözlə diriyəm" (2004, həmmüəllif), "Sənsiz" (2011), "Sən bizim ellərin ruhuna bir bax" (2015) kitabları da bir oxucu kimi məndə böyük inam yaratdığından yuxarıdakı fikrimə bir növ haqq qazandırıram.

"Bizdə şeir də var, sənət də vardır" kitabında həm Ramiz müəllimin özünün məqalələri, ədəbi qeydləri, həm də onun haqqında ədəbiyyat adamlarının yazıları toplanmışdır. Bunun özü də oxucuda maraq doğurur. O səbəbdən ki, bunlar iki söz, iki fikir, qənaət kimi yaradıcılıq aynasında birlikdə əks olunur. Yəni Ramiz Göyüşovun göz önündə, düşüncəmizdə yer almış ədəbi yaradıcılığı, söz, sənət mülkünə olan münasibəti, onların təsvir, təhlil xüsusiyyətləri oxucudan ötrü həm də bir mənbədir.

Ramiz Göyüşov bu kitabında kimlərin yaradıcılığından bəhs edib, hansı ədəbiyyat, sənət sahiblərinin obrazını yaradıb? Digər tərəfdən, kimlər onun yaradıcılıq aləminə nəzər yetirib?

Bu məqalələrdə mənim diqqətimi cəlb edən və razılıqla qarşıladığım məqamlar var. İlk olaraq deməliyəm ki, Ramiz Göyüşov kimdən yazır-yazsın, kimin ədəbi aləminə, şəxsiyyətinə müraciət edir-etsin, fikirlərində cəsarətlidir, haqlıdır, qərəzsizdir. Bu da heç şübhəsiz, onun ədəbi yaradıcılığına oxucu marağı, ehtiramı yaradır. Ramiz müəllim özünün dəqiq arqumentləri, geniş məlumatları, biliyi ilə polemikaya girməkdən çəkinmir. Çünki onun söz adamı olaraq tədqiqat xarakterli fikirləri ilə təhlil qabiliyyəti, mənbələrə, ədəbiyyat tariximizin qaranlıq səhifələrinə aydınlıq gətirmək səriştəsi var. Odur ki, onun polemik mülahizələri oxucuda maraq doğurmaya bilməz. Həm də tarixi şəxsiyyətlərə, onların siyasi-ictimai-ədəbi yaradıcılıqlarına həssaslıqla yanaşması var. Bu da onun sözə, sənətə doğru mövqedən yanaşması ilə əlaqədardır. Fikrimizə nümunə olaraq müəllifin "Yaddaşımın ruhu" bölməsinin ilk yazısı olan "Bir gün olur itirərsiz Vaqifi" polemik məqaləsinə nəzər salaq. Burda mövzu Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Səməd Vurğun, onun "Vaqif" dramı və əsərin qəhrəmanları, tarixi şəxsiyyətlər olan Molla Pənah Vaqif və Ağa Məhəmməd şah Qacardı. Mövzuya geniş müdaxilə etmədən, fikrimizi yığcam şəkildə bildirməklə qeyd edirik ki, R.Göyüşovun Səməd Vurğuna və onun yaratdığı hər iki obraza, belə deyək, qeyri-loyal münasibətdə olan müəlliflə (tarix elmləri doktoru, professor Anar İsgəndərovla - R.Məsud) polemikaya girməsi, məsələyə münasibətini həm də mövzuyla bağlı bir çox ədəbiyyat adamlarının fikirləri ilə əsaslandırması və qəti qənaətini bildirməsi bizdə böyük maraq doğurdu. Düşünürəm ki, bu məqalə ətrafında bir neçə peşəkarın da söz deyəcəyi istisna olmayacaq.

Ramiz Göyüşovun məqalələrində bir məsələyə də diqqət yetirdim ki, onun qəhrəmanları Qazaxın şöhrətli adamları, söz-sənət xiridarlarıdır. Bu, bəzi yazarlar tərəfindən yerlipərəstlik kimi də qarşılana bilər. Amma məsələ ondadır ki, bu sənətkarlar ədəbiyyat tariximizdə özlərinəməxsus yaradıcılıqları ilə yeri olan şəxsiyyətlərdir. Onların ədəbi irsindən, hər hansı bir əsərindən, yaxud elə şəxsiyyətlərindən bəhs etməyin özü Ramiz müəllimin elinə, yurduna bağlılığının, torpağın yetirdiyi canlı sərvətinə məhəbbətinin ifadəsidir. Görün bu şəxsiyyətlər kimlərdir: "Azərbaycanımıza Kazım Ağa Salik, Mustafa Ağa Arif, Cavad Ağa Şıxlinski, Molla Vəli Vidadi, Əliağa Şıxlinski, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı, İsa Muğanna, Vidadi Babanlı kimi görkəmli sənətkarlar vermiş" şəxsiyyətlər... Müəllifin təkcə "Nəsillərə örnək" yazısında (məqalə MEA-nın həqiqi üzvü, "Şöhrət" və "Şərəf" ordenli Teymur Bünyadovdan bəhs edir - R.Məsud) adlarını çəkdiyi ədəbi şəxsiyyətlər hələ o bölgənin yetirdiyi elm-ədəbiyyat adamlarının hamısı deyil. Araşdırma aparsaq bu sıranın nə qədər böyüdüyünü də aşkar görərik. Lakin indiki məqamda bununla bağlı demək istədiyimiz odur ki, R.Göyüşov elindən, yurdundan başladığı, ilk vətəni olan Qazaxın yetirmələrini bir ziyalı olaraq dəyərləndirmək gücündə, qabiliyyətində olmasaydı, böyük vətəni Azərbaycanı da sevə bilməzdi. Bu sevgi intəhasızdır, deyə, o, məhəbbət şairi Nüsrət Kəsəmənlini, şəhid şair Alı Mustafayevi, bəxtikəm, repressiya qurbanı Mikayıl Müşfiqi, xalq şairi Cabir Novruzu... yaradıcılıqlarını tamamlayan şəxsiyyətləri ilə birgə, həm də böyük məsuliyyət və məhəbbətlə təsvir etmişdir...




"Bizdə şeir də var, sənət də vardır" məqalələr toplusunda müəllifin məqalələrindən, yaradıcılıqlarından bəhs açdığı, qəhrəmanlarını xarakterizə etdiyi fikirlərdən çox danışmaq olar. Ancaq burda mən kitabdakı digər bölməyə, "Elin ruhuna köklənmiş qələm"də Ramiz Göyüşovun yaradıcılığından bəhs edən yazılara da yığcım şəkildə diqqəti cəlb etmək istəyirəm. Niyə bəs yığcam şəkildə? Çünki hər hansı bir müəllifin kitabını təqdim etmək, oxucuların ixtiyarında olduğunu demək, əslində tanıtım xarakteri daşıyır. Bu məqalələri ən xırda detallarına qədər incələməksə, bir növ oxucunu həmin kitabı əldə etməyə, acgözlüklə oxumağa yer qoymamaq deməkdir...

Bu məqalələri müəllifin yaradıcılığına, ədəbi düşüncələrinə zamanında verilən dəyər kimi də qiymətləndirmək olar. Bunu "Elin ruhuna köklənmiş qələm", "Sən bizim ellərin ruhuna bir bax", "Ruhumuzun görünən və görünməyən tərəfləri", "Söz qalasında vətən sevgisi", "Daş haqqında düşüncələr"dən doğan Daş düşüncəsi"... məqalələrindən də görmək mümkündür. Müəlliflərin R.Göyüşov haqqında fikirləri də orijinallığı ilə seçilir.

Məti Osman oğlundan seçmə: "Kitabdakı yazılar göstərir ki, Ramiz Göyüşovun ədəbi maraq dairəsinə şeir, nəsr və dramaturgiyadan daha simsar, daha doğmadır. Müəllif hansı şairin haqqında yazırsa, onun əsərləri ilə şəxsiyyətinin bütövlüyünü şərtləndirən müşahidələrə daha geniş yer verir. O, təqdim etdiyi şairlərin şeirlərinə, musiqiçilərin dili ilə desək, öz həyat müşahidələri ilə "ayaq verir", sözün özü ilə sahibi arasında bir uyğunluq, bütövlük görməyə çalışır və yaratdığı portretlərin yaradıcılıq və şəxsiyyət tərəflərini tamamlanmış şəkildə göstərir". Bu müəllifin ədəbi fəaliyyətini səciyyələndirən xüsusiyyətlərdən bir fraqmentdir.

"Nəsillərə örnək insan", "Aysberq adam", "İlham Pirməmmədov - Pir adam", "Dəmir Ledi" yazılarını müəllif "Örnək insanlar" bölməsində təqdim etmişdir. Bu insanlar əslində özlərinin həyatı, fəaliyyəti, insani keyfiyyətləri ilə seçilən, sevilən şəxsiyyətlərdir. Onların haqqında söz deyən müəllif də məhz qəhrəmanlarının bu kimi xüsusiyyətlərini önə çəkir. Ramiz Göyüşovun adlarını çəkdiyimiz məqalələrində həmin insanların gəncliyə örnək olacaq həyatlarından məqamlar təsvir olunub. Elə bunlara görə də həmin yazıları oxumaq, onlardan öyrənmək, bəhrələnmək gərəkdir. "Bizdə şeir də var, sənət də vardır" kitabının qeyd etdiyimiz xüsusiyyətləri ilə oxucu marağını cəlb edəcəyinə inamımız böyükdür.

**Rəfiqə MƏSUD,**
**kinossenarist, publisist.**

TƏKRAR

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Hökumət Evində 2-ci və 9-cu mərtəbələrin əsaslı təmir və yenidənqurma işlərinin satınalınması üzrə açıq tender elan edir.

Tenderdə əsaslı təmir və yenidənqurma işlərinin görülməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra Tenderin Əsas Şərtlər Toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq №806, tel.: +99412 4902408, əlavə 242; faks: +99412 4903359) ünvanından ala bilərlər:

**Emitent**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Bank kodu: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı:**
**AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. bik: CTREAZ22**
**Alan**
**Əmlak Məsələləri Dövlət Komitəsi**
**VÖEN: 2000015631**
**H/H-**
**AZ84CTRE00000000000002647970**
**Büdcə səviyyəsinin kodu -7**
**Büdcə təsnifatının kodu -142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1.Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2.Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3.Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*

*4.Tender təklifi dəyərinin 1 (bir) %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*

*5.Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış.*

*6.İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış.*

*7.İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri.*

*8.Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.*

*9.İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər.*

*10.Digər sənədlər (tenderin Əsas Şərtlər Toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində "Əsli" və "Surəti" yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda, üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 6 (altı) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

-iddiaçının bu sahədəki iş təcrübəsi;

-iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;

-görüləcək işlərin dəyəri.

İddiaçılar öz təkliflərini Əsas Şərtlər Toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 14 may 2019-cu il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 may 2019-cu il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq №806, əlaqələndirici şəxs - Tural Qurbanov) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 23 may 2019-cu il tarixində (saat 11.00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq №310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

**Tender Komissiyası.**




TƏKRAR

## "AZERGOLD" QSC

# AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir: Qızıl və gümüş külçə və sikkələrin istehsalı xidmətinin satınalınması**

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi peşəkarlığa, təcrübəyə, texniki və maliyyə imkanlarına, işçi qüvvəsinə, idarəetmə səriştəsinə və etibarlığa malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra ödəniş sənədini və tenderdə iştirak etmək üçün rəsmi müraciət ərizəsini "AzerGold" QSC-nin Tender Komissiyasına (Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H, Əlaqələndirici şəxs: Aygül Tağıyeva, Tel.: 012-505-02-02 (dax.1108), I-V günlər, saat 09.00-dan 18.00-dək) təqdim etməklə Azərbaycan dilində tərtib olunmuş Əsas Şərtlər Toplusunu əldə edə bilərlər.

**İştirak haqqı: Lot 1 - 170 manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Hesab:**
**AZ85PAHA38020AZNHC0190068658**
**VÖEN: 1403467421**
**Bank: "PAŞA Bank" ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**M/H:**
**AZ82NABZ01350100000000071944**
**S.W.İ.F.T: PAHAAZ22**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1.Tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*2.Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*3.Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*4.Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*5.İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*6.İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və bank rekvizitləri;*

*7.Digər müvafiq sənədlər (Əsas Şərtlər Toplusunda müəyyən edilmiş müvafiq sənədlər)*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) təqdim olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) 15 may 2019-cu il, saat 15.00-a qədər, tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla 2 nüsxədə (əsli və surəti) 23 may 2019-cu il, saat 15.00-a qədər "AzerGold" QSC-nin Tender Komissiyasına Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender üzrə təklif zərflərinin açılışı 24 may 2019-cu il saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri açılışda iştirak edə bilərlər.

**"AzerGold" QSC,**
**Tender Komissiyası.**

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kombaynlar üçün 200 ədəd QKT-6 kq-lıq yanğınsöndürmə balonu və 389 ədəd QKT-6 kq-lıq yanğınsöndürmə balonunun dolumu xidmətinin satınalınması üzrə keçirdiyi kotirovka sorğusunda qalib gəlmiş "KASPİ-YİLDİZ" Azərbaycan-Türkiyə Müştərək Müəssisəsi ilə müqavilə bağlamışdır.

**Tender Komissiyası.**

Xaçmaz rayonu, Müşkür kənd sakini Əliməmmədov Mansur Əläddin oğlunun adına verilmiş JN: 121 Kod: 30219018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, Yeni Mil kənd sakini Hacıyeva Şəkurə Etibar qızının və ailə üzvələrinin xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən 0,12 ha həyətyanı torpaq sahəsinə verilmiş JN-326A (KOD: 60709038) Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Ağayev Şahnəzər Ağaqulu oğlunun adına Bakı şəhər, Xəzər rayonu, Xaşaxuna bağları sahəsində yerləşən 28N saylı torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Əliyev Rəşad Ömər oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyistri tərəfindən verilən RX 0381514 Çıxarış itdiyi üçün etibarsız sayılır. (Ünvan Baki şəhəri Nizami r-nu C.Naxçivanski küçəsi, ev 66a, mənzil-14).

Lənkəran rayon aqrar islahat komissiyasının 27 mart 1998-ci il tarixli 5 nömrəli qərarı ilə Kənarmeşə kənd sakini Fərəcov Bəxtiyar Paşa oğluna məxsus həyətyanı torpaq sahəsinə verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN: 125 B; KOD: 80204038) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 21 fevral 1998-ci il tarixli 3 nömrəli qərarı ilə Küvənil kənd sakini Kərimova Şahnaz Mahmud qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN: 093 A; KOD: 80204058) itdiyi üçün etibarsız sayılır.

Şəmkir rayonu Seyfəli kənd sakini Musayev Musa Hüseyn oğlunun adına verilmiş (JN-1574 saylı, KOD: 50413005) Torpağa Mülkiyyət Hüququna Dair Dövlət Aktı itirildiyindən etibarsız sayılır.

## ELAN

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2019-cu il 14 mart tarixli 204/ü nömrəli Əmri ilə Nazirliyin Layihələrin İcra Qrupu ləğv edilmişdir. Qeyd olunan təşkilatın Nizamnaməsi, VÖEN-i və Ədliyyə Nazirliyinin Qeydiyyat Şəhadətnaməsi itirildiyi üçün etibarsız hesab edilsin.

**Ləğvetmə komissiyası.**

## Bakı Dövlət Universitetinin Qazax filialı

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Mühafizə xidməti göstərmək.

Təkliflər 03 may 2019-cu il saat 12:00-a kimi qəbul olunur.

**Tender Komissiyası.**

## ELAN

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyası kotirovka sorğusu üsulu ilə "Mətbəə xərcləri", "İdarənin xərcləri", "Digər alış və xidmətlər", "Sair xərclər" və "Yumuşaq inventarın alınması" üzrə satınalma həyata keçirir. Maraqlanan təşkilatlar (012) 404-22-00 (3305) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 26 aprel 2019-cu il saat 16:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Zabrat/Maştağa şosesi sol 2.

**Tender Komissiyası.**

## Qusar MRX 2019-cu ildə inventar və avadanlıqların satınalınması üzrə

# AÇIQ TENDER KEÇİRİR

**Tender iki lot üzrə keçiriləcəkdir:**
**Lot-1. İnventarların alınması**
**Lot-2. Avadanlıqların alınması.**

Tender iddiaçıları öz təkliflərini ikiqat zərfdə möhürlənmiş şəkildə təqdim etməlidirlər. Lotlar üzrə təkliflərin iştirak haqlarının Qusar MRX (VÖEN: 4700057741) Qusar Maliyyə İdarəsi h/h: AZ AZ17 AİİBB 36010019444800201148 VÖEN: 4700077491 "Kapital bank"ın Qusar filialı kod 200480 VÖEN: 9900003611

Hesab: AZ37NABZ 01350100000000001944 BİK AİİBAZ2x köçürdükdən sonra şərtlər toplusunu Tender Komissiyasından ala bilərlər.

Lot-1 -170 manat
Lot-2 - 170 manat

Tender iştirakçıları aşağıdakıları təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*

*- tender təklifi və qiymət cədvəli (tender keçirildiyi tarixdən azı 60 gün qüvvədə olmalıdır);*

*- mal göndərənlərin tam rekvizitləri;*

*- vergi və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması barədə arayışlar;*

*-malların mənşəyi və uyğunluq sertifikatları;*

*-tender təkliflərin 2,5 faizi miqdarında bank təminatı (tender keçirildiyi tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*

*-müqavilə forması.*

İddiaçılar sənədləri 03 iyun 2019-cu il tarixdə saat 18:00-a kimi Qusar MRX-nın Tender Komissiyasına təqdim etməlidirlər (tender təklifi və bank zəmanəti istisna olmamaqla).

Tender təklifləri və bank zəmanəti möhürlənmiş ikiqat zərfdə 12 iyun 2019-cu il tarixədək saat 16:00-a kimi qəbul olunacaqdır.

İddiaçıların təklifləri bütün lotlar üzrə 18 iyun 2019-ci il tarixdə saat 11:00-da açılacaqdır.

Əlaqələndirici şəxs: Məhsimov Eldar Meyvəddin oğlu.

Tel.: 0233855849;
0706340863.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# AÇIQ TENDER ELAN EDİR

**Tender 1 lot üzrə keçirilir:**

**Aqrar sahədə informasiya-məsləhət xidmətlərinin, təlim və tədbirlərin təşkili işlərinin satınalınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Nəzərdə tutulan işlər və xidmətlər cari il ərzində Sifarişçinin sifarişi əsasında müxtəlif dövrlərdə və müxtəlif yerlərdə həyata keçiriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Üzeyir Hacıbəyov, 80 ünvanından (Hökumət Evi, 7-ci mərtəbə) (Əlaqələndirici şəxs: İmran Cümşüdov , tel.: (+99412) 498 01 66, 498 17 21) ala bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**
**Təşkilat: Kənd Təsərrüfatı Nazirliyi**
**VÖEN: 1700069791 (Kənd Təsərrüfatı Nazirliyi)**
**Hesab:**
**AZ94CTRE00000000000002188301 (AZN) (Mərkəzi Aparat);**
**VÖEN: 1401555071 (Dövlət Xəzinədarlığı Agentliyi)**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Büdcə səviyyəsi kodu: 7**
**Büdcə təsnifatı kodu: 142340**
**Kodu: 210005**
**Müxbir hesab:**
**AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T. Code: CRTEAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1 % -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının son üç ildə yerinə yetirdiyi anoloji müqavilələr və anoloji sahədə fəaliyyət müddəti barədə məlumat;*

*-iddiaçıların müvafiq mənşə və uyğunluq sertifikatları.*

Tender təklifi Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 03 iyun 2019-cu il saat 18:00-dək, tender təklifi və bank təminatını isə (bank təminatının təqdim edilmədiyi halda təklif açılmadan geri qaytarılacaqdır) möhürlənmiş ikiqat zərfdə 13 iyun 2019-cu il saat 18:00-dək üzeyir Hacıbəyov, 80 (Hökumət Evi, 7-ci mərtəbə) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 14 iyun 2019-cu il tarixində saat 11:00-da Üzeyir Hacıbəyov, 80 ünvanında (Hökumət Evi, 7-ci mərtəbə) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Vidadi və Sabir Bayramovlara, qardaşları**
**BAYRAM BAYRAMOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

---

**AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektvi və "Ərəb filologiyası" şöbəsinin əməkdaşları iş yoldaşları fü.f.d. Fatma Məcidovaya, atası**
**professor ARİF MUSTAFAYEVİN**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Bakı Dövlət Universiteti Filologiya fakültəsi Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının əməkdaşları Etibar Əjdər oğlu Talıblıya, bacısı**
**RƏHİMƏ ƏJDƏR qızı TALIBLININ**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti və kollektivi Milli Qəhrəman Salatın Əsgərovanın anası**
**RƏFİQƏ ƏSGƏROVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Əli SADIQOV

● Çapa imzalanmışdır
24.04.2019